www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 7 oktyabr 2015-ci il Çərşənbə № 221 (6249) Qiyməti 40 qəpik

**Xəbər**

## Bakıda sərnişin avtobus sürücüsünü beşbarmaqla öldürdü

yazısı səh.14-də

**Gündəm**

### Parlamentdə "yol əhvalatları"



Deputatlar çobanlara alternativ yolun ayrılmasını, arakəsmələrin ekspertizasının keçirilməsini təklif etdilər, radarlardan şikayətləndilər

yazısı səh.6-da

### Ərdoğan Rusiya qırıcılarını vurmaqla hədələdi

yazısı səh.9-da

### Qlamurların Bakı dayanacağı, yoxsa..? - Bakı Starbucksundan reportaj

yazısı səh.3-də

### Pambıqçılardan Cahangir Hacıyevə və nazirə sərt ittihamlar

yazısı səh.10-da

### Türkiyə-Azərbaycan hərbi ittifaqı - ədalətli sülhün vazkeçilməz qarantı

yazısı səh.11-də

### Nazirlik "dərman bazarında qıtlıq" xəbəri ilə bağlı açıqlama verdi

yazısı səh.15-də

### Ombudsman Rauf Mirqədirov və Arif Yunusla görüşdü

yazısı səh.3-də

### SOS: əhaliyə satılan palma yağı orqanizm üçün təhlükəlidir

yazısı səh.14-də

### Jurnalist iki oğlunun ölümü ilə bağlı aparılan istintaqdan narazıdır

yazısı səh.12-də

### Dəmiryol işçisinin açıqladığı korrupsiya faktları araşdırılmır

yazısı səh.15-də

### Telman İsmayılovun şirkəti 213 milyon dollar cərimələndi

yazısı səh.2-də

### Yağış suları Bakını yudu

yazısı səh.15-də

## Kreml daha iki azərbaycanlı milyarderlə haqq-hesab çəkir

# PUTİNDƏN ONLARI İSTƏYİRLƏR: VAHİD ƏLƏKBƏROV VƏ ORTAĞI MƏNSİMOVU...

Türkiyə qəzeti yazır ki, "Palmali" Şirkətlər Qrupunun rəhbəri Mübariz Mənsimovun Rusiya hakimiyyəti ilə problemləri ciddiləşib, biznesi çökdürülür; iddialar var ki, iş adamının "krışası" Kremldə düşmənləri boy göstərən "LUKoyl" prezidenti Vahid Ələkbərovdur; həm Ələkbərovun, həm Mənsimovun sıxışdırılmasının səbəbləri sırasında İrana qoyulan sanksiyaların götürülməsi də var...




yazısı səh.5-də

## Bakı-Amerika münasibətlərində mühüm gözlənti - inanılmaz iddia

Suriya böhranı qarşı duran Qərb və Rusiya üçün Azərbaycanın dəyərini artırıb; "Böyük iyirmilər"in Antalya sammiti rəsmi Bakı üçün də ciddi test olacaq; siyasi məhbusların azadlığı üçün növbəti şans pəncərəsi açılır...

yazısı səh.8-də



Elton Məmmədov

### Ziya Məmmədovun qardaşı "ailə sirlərini" açdı

yazısı səh.7-də



### Müsavat başqanı mətbuat konfransı keçirdi və sərt bəyanatlar verdi

yazısı səh.4-də



*Kamran Əliyev:*

### "Rayon qeydiyyatında olan avtomobillərin etibarnamə ilə idarə edilməsi artıq mümkün olmayacaq"

yazısı səh.12-də

YENİ MÜSAVAT
N 221 (6249) 7 oktyabr 2015



## Prezident Ucar və Göyçayda oldu

**Prezident İlham Əliyev oktyabrın 6-da Ucar Rayon Mərkəzi Xəstəxanasının yeni binasının açılışında iştirak edib. Dövlət başçısı xəstəxananın rəmzi açılışını bildirən lenti kəsib.**

Bildirilib ki, yeni xəstəxana üçün 4,4 hektar torpaq sahəsi ayrılıb. Bu ərazinin 1,2 hektarında 4 korpusdan ibarət ikimərtəbəli kompleks tikilib. Xəstəxana kompleksi Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunub.

Prezident "Ucar Aqro" MMC-nin quşçuluq sənaye kompleksi ilə də tanış olub. Dövlət başçısı Ucardan sonra Göyçay rayonuna səfər edib.



## Elçin Əfəndiyevin qızı fövqəladə və səlahiyyətli elçi oldu

**Günay Elçin qızı Əfəndiyevaya ikinci dərəcəli fövqəladə və səlahiyyətli elçi diplomatik rütbəsi verilib. Bununla bağlı sərəncamı bu gün Azərbaycan Respublikasının prezidenti İlham Əliyev imzalayıb.**

Qeyd edək ki, xalq yazıçısı Elçin Əfəndiyev Azərbaycanın baş nazirinin müavinidir.

## Fizika üzrə Nobel mükafatçıları bəlli oldu




**İsveçin Nobel Komitəsi 2015-ci ildə fizika üzrə mükafatın sahibini açıqlayıb. Yaponiyalı Takaaki Kadzito və kanadalı Artur Makdonald "Neytrinlərin kütləsinin olduğunu göstərən neytrin rəqsləri" sahəsindəki kəşfləri ilə əlaqədar bu mükafata layiq görülüblər.**

Xatırladaq ki, ötən gün fiziologiya və tibb üzrə irlandiyalı Uilyam Kempbell və yaponiyalı Satoşi Omura askarid parazitlərinin törətdiyi infeksiyaların müalicəsi sahəsindəki araşdırmaya, çinli Yuyu Tu isə malyariyanın müalicəsi sahəsindəki araşdırmaya görə Nobel mükafatını bölüşüblər.

Oktyabrın 7-də kimya, oktyabrın 9-da isə sülh üzrə Nobel mükafatının sahibləri müəyyənləşəcək. İqtisadiyyat üzrə Nobel mükafatının laureatı isə oktyabrın 12-də açıqlanacaq (APA).

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;

# Telman İsmayılovun şirkəti 213 milyon dollar cərimələndi

**Moskva Arbitraj Məhkəməsi azərbaycanlı biznesmen Telman İsmayılovun "AST" Şirkətlər Qrupuna daxil olan "KBF AST" MMC şirkətinə qarşı 213 milyon dollarlıq iddia üzrə qərar çıxarıb.**

Virtualaz.org saytı "RİA Novosti"yə istinadən xəbər verir ki, VTB qrupuna daxil olan Moskva Bankının iddiası ilə bağlı verilən qərar T.İsmayılov üçün sarsıdıcı olub. Məhkəmə azərbaycanlı milyarderin şirkətinə qarşı iddianı təmin edib.



Moskva Bankı arbitraj məhkəməsinə oktyabrın 5-də Telman İsmayılovun iflas olması ilə bağlı ərizə ilə müraciət etmişdi. Moskvanın Meşanski məhkəməsi oktyabrın 1-də kredit təşkilatının İsmayılova qarşı qaldırdığı 286 milyon dollar həcmində iddianın xeyli hissəsini təmin etmişdi.

Bankın "Rusline 2000" ("Ruslayn 2000") və Hollandiyanın "Tropicano Finance B.V." şirkətlərinə ayırdığı hər iki kredit müqaviləsində benefisiar kimi çıxış edən Telman İsmayılov kreditin vaxtında ödənilməsinə görə şəxsi zəmanət verib. İş adamına qarşı iddia uzun müddət maliyyə öhdəliklərini yerinə yetirmədiyinə görə qaldırılıb.




## AXCP-nin sabiq şöbə müdirinin namizədliyi qeydə alınmadı

**AXCP-nin Nərimanov təşkilatının sabiq şöbə müdiri Ağaşirin Tanrıverdioğlunun 19 saylı Nərimanov birinci seçki dairəsindən namizədliyi qeydə alınmayıb. Sabiq şöbə müdiri imzalarında heç bir saxtakarlığın olmadığını bildirir.**

Bu barədə onun özü müsavat.com-a məlumat verib: "Namizədliyimi qeydə almadılar. Oktyabrın 5-də axşam saatlarında bildirdilər ki, sabah sənin işinə saat 10:00-da baxılacaq. Sonradan zəng edib deyirlər ki, namizədliyin qeydə alınmadı. İştirakım olmadan belə bir qanunsuz qərar qəbul ediblər. Səbəb isə çox gülməlidir. Guya imzalarım saxta olub. Bunlara qapı-qapı imza yığmaq lazım deyil, kimdənsə gərək köçürəsən. Qərardan MSK-ya şikayət edəcəm. Amma inanmıram ki, Məzahir Pənahovun oğruları DSK-dan insaflı olsunlar. Çünki bunların hamısı bir qabdan su içirlər".

❑ Cavanşir ABBASLI



## Saxta dollar, silah və narkotik satan banda yaxalandı

**Respublikanın daxili işlər orqanları cinayətkarlıqla mübarizə sahəsində növbəti uğurlu əməliyyat tədbirləri həyata keçirib. Daxili İşlər Nazirliyindən verilən xəbərə görə, nəticədə odlu silah-sursatın alqı-satqısı, külli miqdarda müxtəlif növ narkotik vasitə və saxta ABŞ dollarının qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslər ifşa edilib.**

Belə ki, Zəngilan Rayon Polis Şöbəsi əməkdaşlarının həyata keçirdikləri tədbirlərlə Astara rayon sakini Zaur Əliyevin "AKSU" markalı avtomatı, patron darağını və 114 ədəd müxtəlif çaplı patronları sentyabrın 22-də adı istintaqa məlum olan şəxsə 1500 manata satması müəyyən edilib. Tədbirin davamı olaraq oktyabrın 2-də Z.Əliyev 1 ədəd qumbaranı həmin şəxsə 300 manata satmaq istəyən zaman yaxalanıb.

Zəngilan Rayon Polis Şöbəsi və Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi əməkdaşlarının birgə keçirdikləri daha bir əməliyyat tədbiri ilə Astara rayon sakinləri Elşən Ağalı, Röyal Əliyev, eləcə də Bakı şəhər sakinləri Tural Səfərov və Hüseynağa Əsgərov da tutulublar.

E.Ağalının paytaxtın Səbayel rayonu ərazisində kirayədə yaşadığı ev baxış zamanı oradan ümumi çəkisi 3 kiloqrama yaxın narkotik vasitə olan heroin, tiryək və həşiş, eləcə də 22 300 saxta ABŞ dolları aşkar edilərək götürülüb.

İlkin dindirmə zamanı E.Ağalı narkotik vasitələri bir müddət əvvəl satış məqsədi ilə İran İslam Respublikasından qaçaqmalçılıq yolu ilə gətirdiyini, saxta pulların isə ona satmaq məqsədilə H.Əsgərov tərəfindən verildiyini bildirib.

## Ali məktəbdə yeddi dekan işdən çıxarılıb

**Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (Keçmiş Azərbaycan Dövlət Neft Akademiyası - red.) 7 dekanı vəzifədən azad edilib. APA-nın xəbərinə görə, vəzifədən azad edilənlər Geoloji kəşfiyyat fakültəsinin dekanı Mayis Babayev, Qaz-neft-mədən fakültəsinin dekanı Vahid Mustafayev, Kimya texnologiya fakültəsinin dekanı Elxan Axundov, Neft mexanika fakültəsinin dekanı Sakit Abbasov, Energetika fakültəsinin dekanı Yusif Cəbiyev, İstehsalat proseslərinin avtomatlaşdırılması və İqtisadiyyat fakültəsinin dekanı Ramiz Allahverdiyev və beynəlxalq iqtisadi münasibətlər və menecment fakültəsinin dekanı Azad Əliyevdir.**

Azərbaycan Dövlət Neft və Sənaye Universitetindən faktı APA-ya təsdiq ediblər. Universitetdən dekanların vəzifədən azad edilməsinin səbəbi açıqlanmayıb. Bildirilib ki, müvafiq əmrlə müvəqqəti icraçı dekanlar təyin olunublar.

Artıq Təhsil Nazirliyi Azərbaycan Dövlət Neft və Sənaye Universitetində qeyd olunan vakant dekan vəzifələrini tutmaq üçün müsabiqə də elan edib.



## Zakir Həsənov türk generala ermənilərin necə məhv edilməsindən danışdı

**Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkədə rəsmi səfərdə olan Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Hulusi Akarla görüşüb.**

Müdafiə naziri bölgədəki hərbi-siyasi vəziyyətə toxunaraq Ermənistanla Azərbaycan arasında münaqişənin regional sabitliyə əsas təhlükə yaratdığını, qarşı tərəfin cəbhədə gərginliyi artırmaq cəhdlərini, Azərbaycan əsgərinin silah gücünə döyüşlərdə düşmən tərəfinin xeyli sayda itki verməsini diqqətə çatdırıb. Görüşün sonunda Ali Baş Komandanın adından müdafiə naziri, general-polkovnik Zakir Həsənovun əmri ilə ölkələrimiz arasında hərbi əməkdaşlığın möhkəmləndirilməsində göstərdiyi xidmətlərə görə ordu generalı H.Akar Azərbaycanın "Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə" medalı ilə təltif edilib.



## "Mən pula görə ANS-dən getsəydim..."

**Tanınmış aparıcı Aytən Səfərova ANS telekanalından ATV-yə keçməsi səbəbi barədə şərh yazıb.**

Teleaparıcı belə qeyd edib: "Bilirsiniz ki, mən efirdə Mətanəti (Mətanət Əliverdiyevanı nəzərdə tutur-red.) söyməmişəm, təhqir etməmişəm ki, mənə nə boyda təpki oldu? Hamilə ikən orada nə boyda əsəb, gərginlik və stress yaşatdılar mənə (ANS rəhbərliyini nəzərdə tutur - red). Bilmədiyiniz şeyləri heç vaxt deməyin. Mən pula görə ANS-dən getsəydim, 2009-cu ildən gedərdim".

Qeyd edək ki, may ayında Binəqədi rayonunda 16 mərtəbəli binada baş vermiş yanğın zamanı "Gündəlik" verilişinin aparıcısı Mətanət Əliverdiyevanın efirdə dediyi "Bir külək idi, oldu keçdi" sözləri cəmiyyətdə birmənalı qarşılanmamışdı.

Bundan sonra ANS telekanalında 18 il çalışan, sonradan ATV-yə keçən Mətanət Əliverdiyevaya qarşı xoş olmayan süjet təqdim olunmuşdu.

YENİ MÜSAVAT
N 221 (6249) 7 oktyabr 2015

**Bu cür mənzərəni daha çox amerikan melodramlarında görmək olur. İş adamı (və ya iş qadını) səhər evdən işə getmək üzrə yola çıxır, acdır, tələsdiyi üçün səhər yeməyini yeməyib və... Bir kafeyə girir, satıcı onu görən kimi "hər zamankından, deyilmi" deyərək gülümsünür, 3 dəqiqə ərzində qəhvəsi və yanında kökəsi hazırdır. Və o, aldıqlarını nuş edə-edə işə doğru yol alır. Necə deyərlər, bir amerikan klassikası...**



# Qlamurların Bakı dayanacağı, yoxsa...? - Bakı Starbucksundan reportaj

## Müxbirimiz "Starbucks Coffee"nin Bakıdakı filialındakı ilginc tariflərdən, servis və kontingentdən yazır: "Bir amerikan klassikası"nın azərbaycansayağı taleyi

Qəhvəxorların vətənində - Avropada belə məkanlar bəs deyincədir. Hər bir avropalının doğma bir kafesi, saatlarla oturub bir stəkan qəhvəsini qurtum-qurtum içəcəyi bir məkanı var. Və təbii ki, onların sırasında brendlər üstünlük təşkil edir. "Olmazsa olmaz"lar, dillərə dastan servisi, keyfiyyəti olan kafelər...

**"O əjdaha"dan bizdə də var...**

Sentyabrın 16-da Bakıda belə brendlərdən biri - "Starbucks Coffee" açılıb. Eyniadlı şirkətin "Alshaya Azerbaijan" MMC ilə birlikdə Azərbaycanda açılan ilk mağazasının ünvanı isə Port Baku olub. Gedənlər getməyənlərə xəbər edib - tərifləyən də var, tənqid edən də... "Yeni Müsavat"ın müxbiri isə dünyaca məşhur brendin Bakı həyatını görmək üçün bir saata yaxın müddət orda olub. Müşahidələrini aparıb, oradakı insanlarla söhbətləşib, qiymətlərlə maraqlanıb... və ortaya hər zaman olduğu kimi "burası Azərbaycan" mənzərəli nəticə çıxıb.

Amma sözügedən məkanda müşahidələrimizi tək aparmamaq qərarına gəldik. Dünyanın bir çox ölkələrində səfərdə olmuş, 3 ilə yaxın Amerikada yaşamış, Harvard məzunu, gənc siyasətçi Bəxtiyar Hacıyevlə bir sabah qəhvəsi içmək üçün saat 12-də vədələşdik. Onun gördüyü Starbuckslar və Bakı reallığı.. deyə paralel aparmaq istədik. Üstəlik, müsahibimiz uzun müddət sosial şəbəkədə bu məkanın təbliğatını aparmış, onun Bakıda açılması üçün çağırışlar etmiş birisidir. Birgə qəhvə içək, müşahidə edək və təəssüratlarımızı bölüşək deyə bir araya gəldik...

**Nahar qiymətinə bir stəkan qəhvə...**

Budur, sözügedən məkanın qabağındayıq. Müsahibim və fotoqrafımız Məhəmməd məndən 10 dəqiqə öncə gəldikləri üçün müşahidə aparmaq imkanları da olub. İkimərtəbəli kafenin ikinci və daha sakit mərtəbəsində oturmadan öncə qəhvələrimizi sifariş edirik. Elə ilk təəssürat da burda - qiymətləri öyrənən zaman yaranır. Bir neçəsini diqqətə çatdıraq:

Espresso - 5.20 - 5.70 AZN (ən kiçik və ən böyük ölçü)
Mocha - 5.60 - 7.30 AZN
Strawberries and cream - 5.60 - 7.30 AZN
Chocalate Cream - 5.60 - 7.30 AZN
Hot Chocolate - 4.10 - 5.40 AZN
Caramel Hazelnut - 5.20 -6.50 AZN
Cafe Latte - 3.30 -4.50 AZN
Cramel Latte - 3.30 - 4.50 AZN
Caramel Mocchiato - 4.00 -5.00 AZN

Bu, içkilərdən bəziləri. Amma qəlyanaltı üçün təqdim edilən təamların qiyməti də "ceyran belində" idi. Bir neçə örnək: 1 dilim şokoladlı yer fıstıqlı tortun qiyməti 7.50 AZN, 1 dilim Mozaik tortun qiyməti 5.50 AZN, 1 dilim Bella Vista adlı kakoslu keksin qiyməti isə 6.00 AZN idi. Bu isə orta statistik azərbaycanlı müştəri üçün yetərincə bahalı sayılırdı. Bu haqda bir qədər sonra...




**Qlamurlar, varlılar, bir sözlə, lüksü sevənlərin məkanı**

Kafenin özəlliklərindən biri də odur ki, aldığınız qəhvənin karton qabının üzərinə adlarınızı yazırlar. Bu da sizə özəl olduğunuzu hiss etdirmək məqsədi daşıyır. Etdirirmi? Satıcılar bizə üzərində adlarımız olan qəhvələri təqdim edəndən sonra ikinci mərtəbəyə qalxırıq. Bir məqamı da nəzərə çatdırım ki, əksər fast-foodlarda olduğu kimi, burda da özünəxidmətdir - növbəyə dayanıb sifarişlərinizi verməli və sifarişinizi alandan sonra onları oturmaq istədiyiniz boş masalara apamalısınız. Yeməyini, kofesini bitirən müştəri boşalmış qabı zibil qutusuna özü də ata bilər, bu işi görmək üçün kafenin işçisi də gələ bilər.



Qələbəlikdən uzaq, lanç saatı olmasına baxmayaraq, azsaylı müştərilərin olduğu kafedə nəzəri cəlb edən daha bir məqam isə müştərilərin kontingenti idi. Daha çox qlamur xanımlar, dəbdəbəli geyimi, bahalı telefonları, maşınları olan gənclərin uğradığı məkan... Çox güman ki, bu da yuxarıda yazdığımız qiymətlərin bahalığı ilə bağlı idi.

Bəxtiyar bəylə bu məkanı, qəhvənin, sözügedən məkanın fəlsəfəsini açmadan öncə isə... bu məkanla bağlı arayış xarakterli məlumat verək. "Starbucks Coffee İnternasional" və "Alshaya" 1999-cu ildən birgə pərakəndə "Starbucks" mağazaları açırlar. "Starbucks" - 1971-ci ildə ABŞ-da yaradılan "fastfood" şəbəkəsidir. Şəbəkənin mərkəzi Amerika Birləşmiş Ştatlarının Vaşinqton əyalətinin Sietl şəhərindədir. İlk "Starbucks" mağazası 1971-ci ildə müəllim Jerry Baldvin və Zev Siegel ilə yazıçı Gordon Bovker tərəfindən açılıb. 1982-ci ildə iş adamı Hovard Schultz mağazanın sahiblərindən biri olub. Daha sonra o, "Starbucks"ın tək sahibinə çevrilib.

**Dünyadakı "Starbucks"lar və bizdəki...**

**Bu belə... "Kafeyə girər-girməz ətrafı bürüyən xoş qəhvə qoxusunun müşayiəti ilə müsahibimizdən "Starbucks" sevgisinin səbəbini soruşuram. Deyir ki, əslində uzun müddət bu məkanın Bakıda açılmasını arzu edib və bu arzusunu tez-tez dilə gətirib. Bunun səbəbi isə 3 illik Amerika həyatı zamanı ona bağlılığı olub:** "Amerikada 2 il təhsil aldığım, 1 il də işlədiyim müddətdə "Starbucks" həyatımın bir hissəsinə çevrilmişdi. Bu məkanın fəlsəfəsi də beldir ki, işləyən və təhsil alanlar üçün üçüncü bir məkan olaraq göstərilir. İnsanlar bəzən evdən işə, işdən-evə yox, getmək üçün üçüncü bir yer axtarırlar. Harda ki, özlərini rahat hiss edə bilirlər. Xüsusən də tələbələr - evdə və universitetdə dərs oxumaqdan sıxılanlar üçüncü bir yer kimi rahat ola biləcəkləri və qəhvə içə biləcəkləri bir məkan axtarırlar. "Starbucks" da elə bu məkanlardandır. Daha çox burda satılan kofe yox, "Starbucks" təcrübəsi insanları cəlb edir. Doğma bir mühitdə qalmaq, işləyə bilmək... çox xoşdur".

**B.Hacıyev kofe tutqusunun səbəblərindən də danışır. Deyir ki, Vaşinqtonda işlədiyi zaman səhərlər yuxudan oyanan kimi "Starbucksa" gedirmiş:** "Gördüyünüz bu qutularda kofemi alır, onu içə-içə işə gedirdim. Bu, mənimçün bir ənənə idi. Amma Bakıda belə ənənə yoxdur. Eləcə də işdən evə gələn kimi paltarımı dəyişir, daha sonra yenə "Starbucksa" gedirdim. Çünki orda özümü bir çox halda evdəkindən daha rahat hiss edirdim.

"Starbucks"un sirri bundadır: elə bir mühit yaradırlar ki, insan özünü müştəri kimi yox, həm də o icmanın bir hissəsi kimi hiss edir. Məsələn, başqa bir yerdə kofe içirsən, kofe bitən kimi dərhal ofisiantların nəzəri üzərinizdədir ki, başqa bir şey sifariş edəcəksizmi? Amma mənim Vaşinqtonda elə günlərim olub ki, 6-7 saat bir fincan qəhvə ilə orda oturub işlərimi görmüşəm və heç kim də mənə hər hansı söz deməyib. Adətən orda pulsuz internet verilir, 220 voltluq elektrik cərəyanı var ki, batareya bitəndə də siz kompüterinizi ora qoşub, işinizi davam edə bələsiz. Bir çox yerlərdə isə kafe tələbələrin dərs oxuması üçün gecə saatlarına qədər açıq olur. Məsələn, Corc Vaşinqton Universitetinin yaxınlığında yerləşən "Starbucks" tələbələrin imtahan vaxtı 24 saat işləyirdi. Bütün masalar dolu olurdu və siz orada qarşısında noutbuku və 20-25 ədəd vərəqi olan tələbələri oturmuş görə bilərdiz. Onlar internetdə araşdırmalar edir, oxuyurdular. Bu, evdən işləməkdən daha rahatdır".

**Qiymət Amerikadakından iki dəfə bahadır**

**Müsahibimiz Bakıdakı kafenin qiymətlərinin baha olduğunu dedi:** "Mən niyə amerikano sifariş etdim? Çünki orda qiymət stabildir. Sonuncu dəfə Amerikada olanda da amerikano almışdım. Qiyməti 2 dollar idi. Burda 4.50 manatdır. İkincisi, kontingent adətən 2 cür olur. Bir - ortayaşlı iş adamları, müxtəlif şirkətlərdə, qurumlarda işləyənlər. İki - qlamur xanımlar. Amma tələbələr olan hissəsi yoxdur. Daha yaxşı olardı ki, bu kafe universitetlərin yanında olsun. Elmlər Akademiyası, İçərişəhərdə...olsa, tələbə kontingenti də bura gələ bilər. Üstəlik, qiymətlər aşağı olsa, daha məqsədəuyğun olar. Burdakı qiymətlər əhalinin orta gəliri ilə müqayisə edəndə kifayət qədər çoxdur. Azərbaycan vətəndaşının orta aylıq əmək haqqı amerikandan xeyli aşağıdır. Bu zaman fərq çox qabarıq görünür".




**Müsahibimiz deyir ki, sözügedən şəbəkənin dünya üzrə əksər şəhərlərində müştəri ilə davranış qaydaları da olduqca nəzakətlidir. Əsas məqsəd müştəri ilə emosional bağlılıq qurmaqdır:** "Yəqin ki, işçilər müəyyən bir təlimdən keçir ki, bu bağı necə yaratsınlar. Qutunun üzərində adın yazılması - bunun özü daha emosional bağlılıqdır. Başqa biri orda saatlarla otura bildiyinə görə özünü rahat hiss edir. Sizə bir hekayə danışım. 2009-cu il idi, Amerikadan yenicə qayıtmışdım, kofe mağazalarından birində dostumuzla görüşdüm. 10 dəqiqə sonra kofemizi bitirdik. 10 dəqiqədən bir 3 dəfə ofisiant yaxınlaşıb, "başqa bir şey sifariş edəcəksizmi" deyə soruşdu. Sonuncu dəfə də "hələ yox" cavabını eşidəndən sonra "mümkündürsə, yekunlaşdırardız, bura başqa müştərilərimiz gələcək", cavabını dedilər. Bu kafedə onu eşitmək olmaz. Dəfələrlə olub ki, mənim kofe içmək həvəsim olmayıb, amma gedib "Starbucks"da oturmuşam".

**Bəxtiyar bəy daha bir maraqlı müşahidəsini bölüşdü. Dedi ki, dünyada insanlar daha çox vaxta qənaət üçün bu məkana gəlir. Amma məsafə uzaq olsa, bunu etməzlər:** "Məsələn, mən Elmlər Akademiyasında olsam, bir fincan qəhvəyə görə bura gəlmərəm. Şəhərin müxtəlif yerlərində olsun, kiçik-kiçik... Bura Bakının bir az fərqli hissəsidir. Bakının ortasında başqa bir məkandır sanki. Əhmədliyə gedəndə başqa mühitdir, bura gələndə başqa mühit. Başqa yerlədə ən azından böyük bir ərazi fərqlənir. Manxettenin başından ayağına qədər demək olar ki, eyni olur. Bruklinə gedəndə isə hiss olunur ki, təbəqə fərqi var. Amma Bakıda bu ada lap kiçikdir. Burdan 500 metr aralıya gedəndə görürsən ki, hər şey çox fərqlidir. İnsanların gəlir səviyyəsi, iş standartları fərqlidir".

**Yaxşı, bəs müsahibimiz sözügedən məkanın Azərbaycanda yaşam şansını nə qədər görür? B.Hacıyevə görə, sözügedən firma çox güman ki, böyük araşdırmadan sonra Bakıda filial açmaq qərarına gəlib:** "Çox güman ki, məhz bu mühitə uyğun bazar olacaq. Tələbələr üçün Elmlər Akademiyasında filial açsalar, bu, tutacaq, ya yox, o da başqa mövzudur".

**Sonda əməkdaşımız müşahidələrini - daha çox bahaçılıqla bağlı suallarına cavab almaq üçün şəbəkənin Bakı bölgəsi üzrə nümayəndəsi ilə danışmağa çalışdı. Amma nümayəndə bildirdi ki, bizim suallarımıza cavab vermək səlahiyyəti yoxdur. Bunun üçün Türkiyə üzrə təmsilçiləri olan Dilruba xanımla əlaqə saxlamağı məsləhət gördü. Əməkdaşımız gün ərzində Türkiyə nümayəndəsi ilə əlaqə saxlamağa çalışsa da, buna nail ola bilmədi. Mövzunu davam etdirəcəyik.**

**❑ Sevinc TELMANQIZI**
**Fotolar Məhəmməd TÜRKMƏNİNDİR**




# Ombudsman Rauf Mirqədirov və Arif Yunusla görüşdü

**İnsan Hüquqları üzrə Müvəkkil Elmira Süleymanova İşgəncələrin qarşısının alınması üzrə Milli Preventiv Mexanizm (MPM) qismində Milli Təhlükəsizlik Nazirliyinin Müvəqqəti saxlama yeri və istintaq təcridxanasına əvvəlcədən xəbərdarlıq etmədən başçəkmə həyata keçirib.**

Virtualaz.org Ombudsman Aparatının mətbuat xidmətinə istinadən bildirir ki, başçəkmədə məqsəd saxlanılma şəraiti və rəftarın araşdırılması, saxlanılan şəxslərin hüquqlarının təmin olunması vəziyyətinin öyrənilməsindən ibarət olub.

Həmin müəssisədə saxlanılan şəxslərdən Rauf Mirqədirov, Arif Yunus və digərləri ilə təkbətək qaydada görüş keçirilib. Təklikdə söhbət zamanı onlar bu müəssisədə saxlanılma şəraiti, habelə müəssisə əməkdaşlarının rəftarından şikayət etməyib, keyfiyyətli qida və tibbi xidmətdən razılıqlarını bildiriblər.

Saxlanılma şəraitinin daha da təkmilləşdirilməsi ilə bağlı müəssisə rəhbərliyinə müvafiq tövsiyələr verilib.

YENİ MÜSAVAT
N 221 (6249) 7 oktyabr 2015

# Müsavat başqanından mətbuat konfransında sərt bəyanatlar

## Arif Hacılı: "Müsavatın seçkidə iştiraka davam edib-etməməsi oktyabrın 10-da bəlli olacaq"

**Müsavat Partiyasının başqanı Arif Hacılı partiyanın 8-ci qurultayından sonrakı bir il müddətində fəaliyyəti və parlament seçkiləri ilə bağlı oktyabrın 6-da mətbuat konfransı keçirdi. A.Hacılı bildirdi ki, Müsavat uzun illərdir Azərbaycanda demokratik quruluşun yaranması, demokratik seçkilərin keçirilməsi uğrunda mübarizə aparır. Ona görə də Müsavat ilk növbədə öz daxilində bu prinsiplərə əməl etdi və bunu cəmiyyətə nümayiş etdirdi.**

A.Hacılı dedi ki, qurultaydan sonra yaranmış fəsadlarla bağlı cəmiyyətdə, Müsavat strukturlarında müəyyən narahatçılıqlar mövcud oldu: "Bu narahatçılıqlar təbii ki, müəyyən problemlər və fəsadlar da yaratdı. Qurultaydan sonra Müsavat Partiyasının strukturları qurulmağa, formalaşmağa və möhkəmlənməyə başladı. Müsavatın bütün strukturları formalaşıb. Bu dövr ərzində Müsavat Məclisinin toplantıları keçirilib. Müsavatın Məclis üzvləri, Divan üzvləri seçilib. Müsavat başqanlarının müavinləri, müşavirləri təyin olunub. Müsavat Məclisinin komissiyaları formalaşıb və fəaliyyət göstərməkdədir. Bu dövr ərzində Müsavatda zona müşavirələrinin keçirilməsi bərpa olundu. Hər həftə partiya Divanının iclası keçirilib. Hər həftə 20-dən artıq rayon təşkilatı sədrlərinin Bakı Sədrlər Şurası adlanan toplantıları keçirilib. Müsavat kifayət qədər ağır siyasi şəraitə baxmayaraq öz fəaliyyətini davam etdirib. Partiyanın strukturları bu müddət ərzində xeyli möhkəmləndirilib, üç yeni rayon təşkilatı yaradılıb, Qadınlar Birliyi yenidən qurulub. Müsavat bu dövr ərzində xarici siyasət sahəsində bir sıra işlər görüb. Biz xarici siyasət sahəsində xüsusilə Azərbaycana aid olan, Azərbaycanla birbaşa təmasları, siyasi əlaqələri olan dövlətlərdə olan siyasi qüvvələrlə əlaqələrə üstünlük vermişik. Bu müddət ərzində Müsavatın keçmiş başqanı İsa Qəmbərlə birlikdə Varşavada keçirilən beynəlxalq tədbirdə iştirak etmişik. Avropanın bir sıra ciddi siyasi xadimləri ilə görüşlərimiz olub. Türkiyədə Dünya Azərbaycanlıları Konqresinin toplantısında iştirak etmişik. Gürcüstanda hakimiyyətdə təmsil olunan müttəfiqlərimizlə Tiflisdə görüşlərimiz olub. Avropa Liberal İttifaqının dəvəti ilə mən müavinim Səxavət Soltanlı ilə birlikdə Brüsseldə olmuşam. Avropa Parlamentində Şərq tərəfdaşlığı mövzusunda keçirilən beynəlxalq konfransda iştirak etdik. Konfransda məruzəçilərdən biri də mən oldum. Diqqəti Azərbaycanda insan haqları və demokratiyanın problemlərinə, ilk növbədə siyasi məhbuslar probleminə cəlb etməyə çalışdım. Bizim bu görüşümüzdən bir müddət sonra məhz Müsavatın müttəfiqi olan Liberal İttifaqın təşəbbüsü ilə Avropa Parlamenti Azərbaycanda demokratiya və insan haqlarının acınacaqlı vəziyyətinə dair çox ciddi bir qətnamə qəbul etdi. Bu ay və gələn ay Müsavat nümayəndələrinin yenə Tiflisdə və Budapeştdə, digər şəhərlərdə görüşləri olacaq. Qarabağ probleminin ədalətli həlli yolları da bu görüşlərdə müzakirə olunacaq".

**A.Hacılı bu bir il ərzində Müsavatın mətbuatla əlaqələrində də müəyyən irəliləyişlərə nail olduğunu bildirdi:** "Bu müddətdə Müsavat musavat.org.az saytını yaradıb. Eyni zamanda bastainfo.az saytı da Müsavat fəalları tərəfindən yaradılıb. Müsavatın informasiya blokadasından çıxmasına nail olmuşuq. Son illərdə ilk dəfədir ki, Müsavat rəhbərliyinin məsuliyyət daşıdığı media orqanları var. Digər media orqanları ilə əməkdaşlıq şəraitində fəaliyyət göstəririk. AzadlıqRadiosuna, "Turan" İnformasiya Agentliyinə, musavat.com və arqument.az saytına və digər mətbuat qurumlarına Müsavata informasiya dəstəyi verdiyi üçün təşəkkürümüzü bildiririk".







### "Hakimiyyət bilir ki, seçkidən sonra bu parlament qeyri-legitim elan olunacaq"

**A.Hacılı bəyan etdi ki, bu bir il ərzində Müsavatı parçalamaq, nüfuzdan salmaq cəhdləri uğursuzluğa düçar olub. Bu dövr ərzində Müsavata yüzlərlə üzv qəbul olunub:** "Bu dövr ərzində itkilərimiz də olub. Partiyanın nizamnaməsini dəfələrlə pozduğu üçün 14 nəfəri partiya sıralarından xaric etmişik. Qurultaydan əvvəlki bir ərzində Müsavatdan xaric olunan üzvlərin sayı bu rəqəmdən bir neçə dəfə çox olub. Yüzədək partiya üzvü son bir ildə partiyadan çıxıb. Burada müxtəlif motivlər mövcuddur. Biz hər bir partiya üzvünün çıxmasını itki sayırıq. Amma Müsavat kimi partiyanın sıralarından bir neçə on nəfər çıxırsa, bu, Müsavatın parçalanması, zəifləməsi demək deyil".

**Arif Hacılı parlament seçkilərindən danışarkən bildirdi ki, hakimiyyətin seçkini saxtalaşdırmaq ehtimalı böyükdür:** "Hakimiyyətin seçkini boykot etməsi ucbatından Azərbaycanda seçki ab-havası hiss olunmur. Mövcud iqtidar uzun illər apardığı siyasət nəticəsində ölkədə seçki ab-havasının olmamasına nail olub. Hakimiyyət ümumiyyətlə ölkədə siyasi prosesin olmamasını istəyir. Azərbaycan iqtidarı ölkədə müxalifət partiyalarını ölkənin siyasi sistemindən sıxışdırıb çıxarmağa çalışır. Ölkədə çoxpartiyalı sistemi sıradan çıxarıblar, demokratik seçkilərin keçirilməsi üçün demokratik seçkiqabağı şərait mövcud deyil".

**A.Hacıllı 1993-cü ildən bu yana bütün seçkilərin saxtalaşdırıldığını bəyan edib. Həmçinin bildirib ki, Müsavat buna baxmayaraq indi də seçkidə iştirak etməklə ölkədə demokratiya uğrunda mübarizə aparan qüvvənin, partiyanın olduğunu nümayiş etdirir:** "Seçkilər boykot edildiyi halda cəmiyyətə verilən əsas mesaj o olur ki, ölkədə müxalifət yoxdur. Müsavat isə seçkiyə getməklə nümayiş etdirir ki, ölkədə müxalifət var, müxalifət mübarizə aparır, sadəcə, hakimiyyət müxalifəti güc yolu ilə əzir. Ən asan yol boykotdur. Müsavat isə asan yolu yox, ən çətin yolu, mübarizə yolunu seçib. Müsavata, namizədlərinə, nümayəndələrinə amansız basqılar var".

**Seçki dairələrinin əksəriyyətində imzaları topladıqlarından danışan Müsavat başqanı dedi ki, bu, təxminən 40 min imza deməkdir. Bir neçə dairədə icra hakimiyyəti orqanları imza toplamağa imkan verməyib:** "Qalan bütün dairələrdə imzaları toplamışıq. Bu günə qədər 12 namizədimiz qeydə alınıb. Digərlərinin sənədləri təqdim edilib, DSK-larda baxılır. Biz seçkiyə qatılmaqla bir sıra hədəflərə nail olmuşuq. Artıq biz bu seçki prosesində 300 mindən çox seçici ilə təmaslar qura bilmişik. Ölkədə hakimiyyətin seçki saxtakarlıqlarına hazırlaşdığını, qanunsuzluqları ifşa etmişik. Yəqin ki yaxın günlərdə qeydiyyat prosesi başa çatdıqdan sonra Müsavatın seçkidə iştirakı davam etdirib-etdirməmək məsələsi Divanda müzakirə aparılacaq. NİDA və REAL-la da bundan sonra seçkidə hansı şəkildə iştirak etmək məsələsini müzakirə edəcəyik. Müsavatın seçkidə iştiraka davam edib-etməyəcəyi namizədlərin qeydə alınması başa çatan günün səhərisi-oktyabrın 10-da Divanın növbədənkənar iclasında bəlli olacaq".

A.Hacılı 25 oktyabra təyin edilən mitinqlə bağlı jurnalistlərin suallarına cavabında dedi ki, bu mitinqdə digər qüvvələr, namizədlər iştirak edəcəksə, Müsavat buna müsbət yanaşacaq. Ancaq hazırda Müsavat REAL və NİDA-dan başqa heç bir partiya ilə seçkidə əməkdaşlıq etmədiyi üçün bu iki təşkilatdan başqa hansısa partiyalar və bloklarla mitinq məsələsi müzakirə edilmir.

Müsavat başqanı onu da bildirdi ki, hakimiyyətin namizədləri müxalifət namizədlərindən çox səs almaq imkanında deyillər. A.Hacılı Müsavatın sabiq deputatları Arzu Səmədbəylinin və İltizam Əkbərlinin bəhanələrlə qeydə alınmamasını Müsavata qarşı təzyiqlərin, hakimiyyətin Müsavat namizədləri ilə seçkidə üz-üzə gəlməkdən çəkindiyinin nümunəsi adlandırdı. İstiqlalçı millət vəkili Məryəm Həsənovaya hakimiyyətin millət vəkili olmaq imkanını verməməsini A.Hacılı kəskin pislədi. A.Hacılı dedi ki, Azərbaycan parlamentində adıçəkilən şəxslər, həmçinin Nüşabə Sadıqlı, Vəfa Cümşüdlü, İkram İsrafil, Elman Fəttah kimi deputatlar yoxdur. Müsavat başqanı hakimiyyətin hələ bir nəfər də olsun müsavatçı xanım namizədi qeydə almağa imkan vermədiyini vurğuladı.

Arif Hacılı bəyan etdi ki, YAP-dan başqa demək olar bütün siyasi qüvvələr AŞ PA-nın müşahidə missiyasından narazı qalacaq. Çünki bu müşahidə missiyasını Azərbaycan hakimiyyəti gətirir. ATƏT-i isə hakimiyyət seçkiləri müşahidə etmək üçün Azərbaycana buraxmır. Müsavat ATƏT-in müşahidə missiyasının seçkiləri müşahidə etməsini istəyir.

A.Hacılı saxta seçkilərlə formalaşdırılacaq parlamentin legitimliyi məsələsindən də danışdı. Qeyd etdi ki, Azərbaycan hakimiyyəti üçün legitimlik kompleksi yoxdur. Hakimiyyəti parlamentin legitim olub-olmayacağı maraqlandırmır. Hakimiyyət bilir ki, seçkidən sonra bu parlament daxili siyasi qüvvələr və beynəlxalq təşkilatlar tərəfindən legitim olmayan parlament kimi elan olunacaq.

❑ Etìbar SEYÌDAĞA



## Müsavat başqanı Nauman Fondunun nümayəndəsi ilə görüşüb

**Oktyabrın 6-da Müsavat Partiyasının başqanı Arif Hacılı partiyanın mərkəzi qərargahında Fridrix Nauman Fondunun Azərbaycan üzrə təmsilçişi, FNS-in Tiflis (Gürcüstan) nümayəndəliyinin rəhbəri Peter-Andreas Bohmanla görüşüb. Bu barədə musavat.com-a partiyanın mətbuat xidmətindən məlumat verilib.**

Bildirilir ki, görüşdə ölkəmizdə ictimai-siyasi vəziyyət, Qarabağ konfliktinin ədalətli həlli yolları, demokratiya və insan haqları mövzusu, siyasi məhbuslar problemi, seçki kampaniyasının gedişi müzakirə olunub. Görüşdə həmçinin Fridrix Nauman Fondu ilə Müsavat Partiyası arasında əməkdaşlıq prespektivləri və digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

YENİ MÜSAVAT
N 221 (6249) 7 oktyabr 2015

## Kreml daha iki azərbaycanlı milyarderlə haqq-hesab çəkir




# Putindən onları istəyirlər: Vahid Ələkbərov və ortağı Mənsimovu...

Türkiyə qəzeti yazır ki, "Palmali" Şirkətlər Qrupunun rəhbəri Mübariz Mənsimovun Rusiya hakimiyyəti ilə problemləri ciddiləşib, biznesi çökdürülür; iddialar var ki, iş adamının "krışası" Kremldə düşmənləri boy göstərən "LUKoyl" prezidenti Vahid Ələkbərovdur; həm Ələkbərovun, həm Mənsimovun sıxışdırılmasının səbəbləri sırasında İrana qoyulan sanksiyaların götürülməsi də var...

**Türkiyədə yaşayan azərbaycanlı milyarder, "Palmali" Şirkətlər Qrupunun rəhbəri Mübariz Mənsimovun Rusiya hakimiyyəti ilə problemləri getdikcə ciddiləşir. Belə məlum olur ki, bir neçə gün əvvəl Rusiyanın "Novaya qazeta" nəşrində Mənsimovun şirkətinin İŞİD-ə aid nefti daşımaqla məşğul olduğuna dair yer alan iddialar Kremlin milyarderlə bağlı ciddi planlarının tərkib hissəsidir.**

Türkiyədə nəşr edilən "Sözçü" qəzeti Mənsimovun Rusiya prezidenti Vladimir Putinlə aralarının pozulduğu, bu üzdən biznesinin çökməyə başladığı haqda sensasion məqalə ilə çıxış edib. Qəzet "Palmali" Şirkətlər Qrupuna yaxın çevrələrə istinadən iddia edir ki, Rusiya və Azərbaycan neftinin daşınması ilə məşğul olan Mənsimovun maliyyə durumu hazırda ciddi şəkildə pisləşib. Oliqarx hətta "Palmali Havaçılık" şirkətinin qeydiyyatında olan biznes-jetlərini satışa çıxarıb və iki təyyarəni artıq satıb. Biznes-aviasiya xidmətləri göstərən bu şirkətin anqarında 5 təyyarə var. Təyyarələrdən qiymət qoyulmadan internet üzərindən satışa çıxarılan ikisi - "Falcon 2000S" 25 milyon dollara, "Falcon F7" isə təxminən 50 milyon dollara başa gəlib.

Qəzetin yazdığına görə, üzləşdiyi maliyyə sıxıntıları nəticəsində Mənsimov Bodrumun Gökçebel kəndi yaxınlığındakı "Cennet köyü" adlanan ərazini almaqdan da imtina edib.(virtualaz.org).

Azərbaycanlı oliqarxın Rusiya elitası ilə yaxın münasibətləri çoxdan məlumdur, ancaq onun Putinlə münasibətlərinin niyə korlandığı haqda heç nə deyilmir. Mənsimovun Kremlin hədəfinə niyə gəldiyi barədə müxtəlif versiyalar irəli sürmək olar. Məsələn, "AST" Şirkətlər Qrupunun prezidenti Telman İsmayılovun Rusiyadan didərgin salınmasının səbəbini hansısa əyləncə mərkəzində Putin haqqında xoşagəlməz sözlər söyləməsi ilə izah edirlər. Putin bu kimi "oşibka"ları bağışlamır. Üstəlik, Rusiyada hakimiyyət - oliqarxiya münasibətlərinin daha bir özünəməxsusluğu var. Hakimiyyət oliqarxların qazandığı pullardan Rusiya dövlətinə və əhaliyə də nəsə xərclədir, bəzi iri sosial proyektləri hətta onların büdcəsinə "yükləyir". Putinin adamları Telman İsmayılova da "cəza kimi" bu tipli bir neçə proyekt təklif etsələr də, oliqarx razılaşmamışdı və bu səbəbdən birdəfəlik biznes-elitadan silindi, müflis oldu...

"Palmali" Rusiyanın "LUKoyl" və "Rosneft" neft şirkətləri ilə uzun illərdir ki, əməkdaşlıq edir. Rusiyanın "LUKoyl" şirkəti ilə müqavilə 1998-ci ildə imzalanıb. Məlumatlara görə, Mənsimovun iş həyatındakı uğurlarında "LUKoyl" şirkəti ilə imzalanan müqavilənin rolu böyük olub. Belə ki, "LUKoyl"la 1998-ci ildə müqavilə imzalanarkən Mənsimovun Vahid Ələkbərovla həmyerli olmasından savayı, digər bazar iştirakçılarından heç bir üstünlüyü olmayıb. İlkin dövrdə "Palmali" "LUKoyl"un neftini Həştərxandan Xəzər vasitəsilə İrana çatdırırdı. Bu neft daxili ehtiyaclar üçün istifadə edilirdi. İran körfəzinin cənub limanlarından alınan yerli yanacaq isə "LUKoyl"un qərbli alıcılarına göndərilirdi. İlkin dövrlərdə "Palmali"yə məxsus gəmilər ayda 300 min ton neft daşıyırdı. Amma tezliklə Mənsimov dəniz daşımalarını genişləndirdi. 2003-cü ildə "Palmali" donanması artıq 45 gəmidən ibarət idi. 2006-cı ilin aprelində "Palmali" "LUKoyl"dan 270 mln. dollara buzqıran tipli 10 tanker aldı. Hazırda bu tankerlər Baltik dənizində hərəkət edirlər. Bu gün "Palmali"nin donanmasında 20-dən çox tanker var. Aydındır ki, biznes imkanları genişləndikcə Mənsimovun "LUKoil" prezidenti, bakılı milyarder Vahid Ələkbərovla münasibətləri daha da möhkəmlənib və Ələkbərovun biznes şərikinə çevrilib. Bir neçə il əvvəl "LUKoyl" şirkəti Xəzərin şimalında dəniz karbohidrogen yatağının obyektlərinin işlənilməsi üçün yük keçid kranına malik nəqliyyat-quraşdırma barjının layihəsinin hazırlanması və inşası üzrə tender elan etmişdi. Tenderi "Palmali" şirkəti qazandı və bu o zaman Rusiyanın biznes elitasında "yerliçilik" kimi ciddi əks-reaksiya doğurdu. Doğrudur, Mənsimov müsahibələrinin birində deyib ki, V.Ələkbərovla yalnız "LUKoyl"la işləməyə başlayandan üç il sonra tanış olub: **"Yerli kimi onunla fəxr edirəm, amma heç vaxt ondan heç nə xahiş etməmişəm"**. Bununla belə, iddialar var ki, Rusiyada Mənsimova ən yaxın iş adamı və "krışası" məhz Vahid Ələkbərovdur.

Rusiyaya tətbiq edilən sanksiyalar səbəbindən "LUKoyl" da ciddi maliyyə sıxıntıları yaşayır. Rusiyada prezident Vladimir Putinin yaxın dostlarının çevrəsinə daxil olan Kremlin "boz kardinalı" hesab edilən "Rosneft" prezidenti İqor Seçinlə Vahid Ələkbərovun münasibətləri son aylar daha da gərginləşib. Məsələ bundadır ki, Seçinin işləri son vaxtlar düz getmir. Kremlin "boz kardinalı" Şərqi-Taymır neft yataqları uğrunda mübarizəni Ələkbərova uduzub. "Rosneft" Ələkbərovun şirkətini bu yataqlara buraxmaq istəmir. Ancaq "LUKoyl" yataqlarda işləmək üçün lisenziya alıb və "Rosneft" lisenziyanın ləğvi üçün məhkəməyə müraciət edib. Yarım ay əvvəl həbs edilən Kominin qubernatoru Vahid Ələkbərovun himayəsində olan adam kimi tanınırdı. V. Ələkbərovun şirkəti Kominin zəngin neft yataqlarına investisiya yatırmağa hazırlaşırdı ki, qubernator həbs edildi. Rusiya mətbuatı yazır ki, bu həbslərin əsl səbəbi Seçinin azərbaycanlı maqnatla çəkişməsidir.

Qeyd edək ki, V.Ələkbərovun Kremldə də mövqelərinin zəiflədiyi barədə xəbərlər intensivləşib. O, son vaxtlar Putinlə Kremldə tez-tez görüşür ki, bu görüşlərin səbəbləri mediaya məlum deyil. Son belə görüş isə oktyabrın 1-də baş tutub. İddialar var ki, Putinin yaxın ətrafı V.Ələkbərovun işdən uzaqlaşdırılmasını istəyir. Həm Ələkbərovun, həm Mənsimovun sıxışdırılmasının səbəbləri sırasında İrana qoyulan sanksiyaların götürülməsi də var. Çünki enerji bazarına İran kimi zəngin ölkə gəlirsə, bu, neft daşımaçılığından tutmuş, bütün iqtisadi sferalarda hədsiz pul qazanmaq imkanları yaradacaq. Bu vəziyyətdə isə biznes elitasında gizli müharibələr daha da artacaq. Vahid Ələkbərovun və ona yaxın Mənsimovun "vurulması" bu savaşın ilk işartılarıdır.

Görünür, son illər rus şovinizminə daha çox yuvarlanmış Rusiya bunu biznesdə də sınayır.

❑ **"Yeni Müsavat"**

## Yaxın Şərqdə kürd dövləti yarana bilərmi?



**Hüseynbala SƏLİMOV**

**Proseslər Yaxın Şərqdə aydınlaşmaya və müəyyənliyə gətirib çıxarmadı. Əvvəldən də demişdik ki, Yaxın Şərq düyününün tezliklə açılacağına ümid bəsləmək üçün elə bir zəmin yoxdur. Demirik ki, bizim proqnozumuz özünü doğrultdu, ona görə ki, bu, çoxuna aydın idi...**

Rusiya Suriyaya quru qoşunları göndərməyəcəyini bildirdi. Bu isə o demək idi ki, burada alovlanan münaqişəyə bir az da "benzin" ələnəcək. İndi həmin bu bölgədə kim vuruşur, kimə qarşı vuruşur, bunu bir Allah bilir... Ona görə də bu bölgəni indi "Hamının hamıya qarşı vuruşduğu məkan" adlandırmaq elə də yanlışlıq olmazdı...

Əksər mənbələr nə qədər qəribə olsa da, bölgənin siyasi xəritəsini dəyişə biləcək ssenariləri nəzərdən keçirməyə elə də həvəsli deyillər. Amma bir də görürsən ki, adda-budda Rusiya mətbuatında bu səpkidə də yazılar peyda olur.

Ən çox nəzərdən keçirilən ssenari də Yaxın Şərqin xarabalıqlarında yeni bir dövlətin-kürd dövlətinin yaranması ssenarisidir...

Demirik ki, bu, təzə məsələdir. Yox, hələ Səddam İraqına qarşı əməliyyatlar başlananda bu məsələ gündəmə gəlmişdi. Hətta bir ara elə təsəvvür yarandı ki, kürd dövlətinin yaranması artıq reallıqdır...

Amma kürdlər Səddama qarşı mücadilələrinin müqabilində öz mükafatlarını ala bilmədilər. Səbəb çox idi. Dövlətlərin parçalanması heç də hamının sevdiyi ssenari deyil. Həm də bölgədə kürd dövlətinin yaranmasını istəməyən çox ciddi geosiyasi vektorlar var...

Əvvəl də, elə indi də çoxu belə hesab edir ki, bölgədə kürd dövləti yaransa ABŞ çox ciddi və sadiq müttəfiq əldə edə bilər. Həm də belə bir dövlətin meydana çıxması ABŞ-a Türkiyənin və İranın siyasətini tənzimləməyə imkan verər...

Amma əvvəldə dediyimiz kimi, heç də hamı kürd dövlətinin yaranmasını istəmir. Region dövlətlərinin hamısı, xüsusən də İran və Türkiyə bunun qəti əleyhinədir...

Onların arqumenti budur ki, tutaq ki, İraq ərazisində kürd dövləti yaransa, bu, digər dövlətləri - Türkiyəni və İranı təhdid edəcək, oralardakı kürd separatizmini stimullaşdıracaq. Adətən bu mövzuda yazanda hamı məhz indi səslənən arqumenti dilə gətirirlər. Amma kim bilir? Bəlkə belə olmayacaq?

Şimalda Azərbaycan dövləti bərpa olunanda da hamı güman edirdi ki, bu hadisə İran üçün problem yaradacaq və onu təhdid edəcək. Hətta ilk dövrlərdə İranın siyasət və dövlət adamlarının çoxu da belə düşünürdü...

Fəqət, sonrakı hadisələr nə göstərdi? Məlum oldu ki, Şimalda Azərbaycan adlı bir dövlətin mövcud olması İranı təhdid etməyə də bilər, hətta iki dövlət çox normal münasibətlər qura və dinc qonşuluqda yaşaya bilərlər...

Bütün məsələlərin prinsipcə, həlli var. Sadəcə, özünə əziyyət verib bu həlli tapmağa cəhd etmək lazımdır. Bu günlərdə Almaniyanın birləşməsindən 25 il ötdü. Yadıma gəlir ki, Almaniyanın birləşməsi reallaşanda Avropada az qala hamı narahat idi, çünki hamı düşünürdü ki, birləşmiş Almaniya digər dövlətlərə qarşı ərazi iddiaları irəli sürəcək. Amma belə olmadı. Almaniya öz üzərinə belə bir öhdəlik götürdü ki, o, heç kimə qarşı ərazi iddiası irəli sürməyəcək...

İndi ola bilsin İraqda kürd dövlətinin yaranması da digər dövlətlərin ərazisində yayaşan kürdlərə bir növ tənzimləyici təsir göstərsin. O insanlar ki, onlar üçün əsas məsələ kürd dövlətində yaşamaqdır, onlar köçüb İraq və ya Suriya ərazisində yaranmış kürd dövlətində yaşaya bilər. Qalanlar üçün isə sadəcə, belə bir dövlətin mövcud olması yetərlidir...

Adam nə qədər çalışır, kürd probleminin başqa bir həllini görmür. Türkiyədə də nə vaxtsa bu qənaətə gələcəklər. Açığı, biz Türkiyəyə görə çox nigaranıq.

Təşvişlə xəbərləri izləyir və özümüz üçün bir suala cavab axtarırıq: nə vaxta qədər belə davam edəcək? Ümumiyyətlə, kürd probleminin güc yolu ilə həlli varmı?..

Güman edirik ki, bu həll olsaydı o, bu vaxta qədər tapılardı. Bir daha deyirik ki, bəlkə də Türkiyə ərazisindən kənarda kürd dövlətinin yaranması problemi müəyyən qədər çözərdi...

Çoxu deyir ki, hələ bilmək olmaz bu, necə dövlət olacaq? Düzdür! Amma bir qayda olaraq hələ heç bir dövlətə özünün bütün etnik qruplarını bir ərazidə toplamaq müəssər olmayıb - həmişə xaricdə qalanlar, başqa dövlətin ərazisində yaşayanlar olacaq...

Güman edirik ki, kürd siyasətçiləri də bunun fərqindədir. Ona görə də kürdlər böyük və stabil dövlətlərə - Türkiyəyə və İrana qarşı ərazi iddialarından nə qədər tez əl çəksələr, bir o qədər yaxşıdır...

YENİ MÜSAVAT
N 221 (6249) 7 oktyabr 2015

**Oktyabrın 6-da Milli Məclisin növbəti plenar iclası keçirildi. Spiker Oqtay Əsədovun sədrliyi ilə baş tutan iclasın gündəliyinə 34 məsələ daxil edilmişdi. "Qaçqınlar və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" Qanunda dəyişiklik edilməsi barədə İnsan Hüquqları Komitəsinin sədri Rəbiyyət Aslanova məlumat verdi.**



# Parlamentdə "yol əhvalatları"

## Deputatlar çobanlara alternativ yolun ayrılmasını, arakəsmələrin ekspertizasının keçirilməsini təklif etdilər, radarlardan şikayətləndilər

Qeyd edək ki, Dini Komitəyə yeni səlahiyyətlər verilib. Komitə bundan sonra nəzarət markası ilə markalanmış dini təyinatlı ədəbiyyatın *(kağız və elektron daşıyıcılarında)*, audio və video materialların, mal və məmulatların və dini məzmunlu başqa məlumat materiallarının satışı üzrə ixtisaslaşdırılmış satış məntəqələrində "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Qanuna uyğun olaraq yoxlamalar aparacaq. Eyni zamanda qurum din sahəsində mütəxəssislərin hazırlanması və ixtisaslarının artırılması üçün tədbirlər görür, ixtisasartırma kurslarını təşkil edir. R.Aslanova əlavə etdi ki, dünyada baş verən hadisələr, xüsusilə də miqrasion situasiyanın kəskinləşməsi ilə əlaqədar qanuna dəyişikliklər edilməsi zərurəti ortaya çıxıb. Səsvermə ilə dəyişikliklər qəbul edildi.

Deputat Rəfael Cəbrayılov çıxışında dedi ki, dəyişikliyə görə, Azərbaycana gəlmiş qaçqınlar qanunvericilikdən artıq ölkədə qalmaqda israrlı olarsa, o halda onların xüsusi məntəqələrdə yerləşdirilməsi məsələsi reallaşdırılacaq. R.Cəbrayılov bildirdi ki, əvvəlki layihədə ombudsmana əvvəlcədən xəbərdarlıq etmədən istənilən dövlət qurumuna və məntəqələrə xəbərdarlıqsız daxil olmağa icazə verilirdisə, yeni düzəlişlərdən sonra miqrantlarla bağlı məntəqələr də siyahıya əlavə olunur. O, müzakirəyə çıxarılan məsələ konstitusiya qanunu olduğu üçün deputatların 95-nin səsinin tələb olunduğunu da bildirdi. Qanuna dəyişiklik müzakirələrdən sonra qəbul edildi.

"Dini etiqad azadlığı haqqında" Qanuna dəyişikliyi isə komitə sədri **Rəbiyyət Aslanova** təqdim etdi. Komitə sədri bildirdi ki, dəyişikliklər müvafiq komitənin dini ədəbiyyata nəzarətinə əlavə imkan yaradır.

**Qüdrət Həsənquliyev çıxışında dedi ki, bu gün dini təşkilatların ikisi siyasi motivli çıxışlar səsləndirərək seçkiləri boykot edəcəyini bəyan edib. Deputat qanunverilcikdə dini təşkilatların siyasi proseslərə müdaxiləsini qadağan edən müddəaların olduğunu xatırlatdı:** "Bu yaxınlarda mən dini ekspert kimi çıxış edən bir nəfərin, həmçinin narkomanlığa görə həbs edilmiş və türmədən yeni çıxmış digər birinin rəyini gördüm. Bunlar QHT-lərdir və onların nizamnaməsində siyasi məsələlərə müdaxiləsi qanunla qadağandır. Qanunvericiliyə zidd olaraq belə şəxslərin siyasi məsələlərə müdaxiləsinə görə Ədliyyə Nazirliyi dərhal müdaxilə etməli və həmin təşkilatların qeydiyyatı ləğv edilməldir".

"Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanuna dəyişikliyi nəzərdə tutan layihəyə dəyişiklik də qəbul edildi. **Rəfael Cəbrayılov** dedi ki, dini fəaliyyətlə məşğul olacaq təşkilatların dövlət qeydiyyatına alınmasın proseduru zamanı tələb olunan sənədlərin içərisində müvafiq icra hakimiyyəti orqanının rəyinin də olması zəruri edir.

""Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" qanuna edilən dəyişikliklərə əsasən, Ombudsman Aparatında Milli Preventiv Qrup yaradılır və bu qrup istənilən vaxt, maneəsiz və əvvəlcədən xəbərdarlıq etmədən polis bölmələrinə, müvəqqəti saxlama yerlərinə, istintaq təcridxanalarına, cəzaçəkmə müəssisələrinə, qanunsuz miqrantların saxlanılması mərkəzlərinə və saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi digər yerlərə daxil ola bilər. Qanuna edilən dəyişiklik qəbul edildi.

**"Yol hərəkəti haqqında" Qanunun müzakirəsi zamanı çıxış edən deputat İlham Əliyev yollarda quraşdırılan sürəti qeydə alan kameralarla bağlı narazılığını ifadə etdi. O, sözügedən kameraların problem yaratdığını vurğuladı:** "Radara 30 metr qalmış sürətin həddi qəflətən aşağı düşür. Bu daha da qəzalı hadisəyə gətirib çıxarır. Əgər sürücü birdən-birə sürəti 110-dan 50-yə azaldırsa, bu, qəzanın yaranmasına gətirib çıxarır. Bəzən elə yollarda sürət həddi aşağı salınıb ki, buna ehtiyac yoxdur. Bu baxımdan Kürdəmir-Gəncə yolu ümumiyyətlə, dəhşətdir. Hər xırda yaşayış məntəqəsinə çatanda radar qurulub. Radara çatmamış sürət həddi birdən-birə 50 km saata düşür".

**Elmira Axundova isə bildirdi ki, magistral yollarda qətliamlar törədilir:** "Bakı-Sumqayıt yolunda olan son hadisəni müşahidə etdik. Dəmir arakəsmələr ölüm alətinə çevrilir. Təklif edirəm ki, bu arakəsmələr ekspertiza edilsin. Mən internetdə rolikə baxdım, Qərbdə belə dəmir arakəsmələr var, amma onları ağır tonlu maşınlar sındırmır. Bizdə isə kiçik ölçülü maşınlar həmin dəmir arakəsmələri sındırır. Ona görə təklif edirəm ki, ekspertizadan sonra bu arakəsmələrin keyfiyyəti artırılsın, ya da digər qurğularla əvəz edilsin. Bu, insan təhlükəsizliyi baxımından əhəmiyyətlidir".

**Sabir Rüstəmxanlı da yollardakı durumdan şikayətləndi. Ancaq yolların qayğısına qalan qurumları kənd təsərrüfatı, heyvandarlıqla məşğul olan insanlara alternativ göstərməyə çağırdı:** "Torpaqlar özəlləşdirilib, magistral yollarla camaat mal-qarasını arandan yaylağa necə aparmalıdır? Yardımlıda, Masallıda, Şamaxıda insanlar hələ də mal-qarasını arana- yaylağa aparır. Hər dəfə mal-qaranı aran və yaylağa aparan insanlarla yerli sakinlər, icra qurumları arasında mübahisə yaranır". Qeyd edək ki, "Yol hərəkəti haqqında" Qanuna dəyişikliklərdə avtomobil yollarının torpaq sahələrində mal-qaranın otarılması, respublika əhəmiyyətli avtomobil yolları ilə

## Plenar iclasda müflisləşən bankların taleyi ilə bağlı layihə də təsdiqləndi; həmçinin dindarların siyasi proseslərə müdaxiləsindən danışıldı

mal-qaranın aparılması, avtomobil yolundan və ya bu məqsədlə xüsusi olaraq yaradılmış keçidlərdən kənar mal-qaranın keçirilməsinin qadağan olunması əksini tapıb.

Deputatlar heyvanlar üçün ayrıca keçidlərin tikilməsini də zəruri saydılar.

Müzakirələrdən sonra qanun layihəsi qəbul edildi. Qeyd edək ki, İnzibati Xətalar Məcəlləsinə edilən dəyişikliyə görə, Azərbaycanda avtomobil yollarının qorunması qaydalarının pozulmasına görə vəzifəli şəxslər cərimələnəcək. Dəyişikliyə əsasən, avtomobil yollarının qorunması qaydalarının pozulmasına görə vəzifəli şəxslər 30 manatdan 50 manatadək, hüquqi şəxslər 100 manatdan 150 manatadək cərimələnəcəklər. Azərbaycanda avtomobil yollarından istifadə olunması zamanı yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi məqsədilə tətbiq edilən qadağalar da sərtləşdirilir. "Yol hərəkəti haqqında" Qanunda əksini tapan dəyişikliklərə görə, avtomobil yollarını korlayan konstruksiya elementləri olan nəqliyyat vasitələrinin, həmçinin karxana avtomobillərinə aid edilən nəqliyyat vasitələrinin ümumi istifadədə olan avtomobil yolları ilə yüklə hərəkəti qadağan edilir. Eyni zamanda yolların hərəkət hissəsinə yanacaq-sürtkü materialları, kimyəvi maddələr, bitum və beton axıdılması, habelə daş, çınqıl, qum və ot tökülməsi və s. yolu zibilləyə biləcək materialların və yüklərin qablaşdırılmadan aparılması qadağan olunacaq. Qadağalar mal-qaranın yolların kənarında otarılmasına da şamil ediləcək. Belə ki, avtomobil yollarının torpaq sahələrində mal-qaranın otarılması, respublika əhəmiyyətli avtomobil yolları ilə mal-qaranın aparılması qadağan edilir. Suvarma, sənaye, çirkab və kanalizasiya sularının avtomobil yoluna və yağış sularının avtomobil yolundan kənarlaşdırılması üçün tikilmiş kanalizasiya sisteminə, suyu kənara axıdan qurğulara və yolboyu torpaq sahəsinə axıdılması, avtomobil yollarının təhkim və qorunma zolaqlarının, yol örtüyünün çirkləndirilməsi də qanuna təklif olunan əlavələr sırasındadır. Bir sıra məsələlərlə bağlı isə qadağa qoyulmasa da, müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılması tələb olunur. Belə ki, yol hərəkətinin təhlükəsizliyinə mane olan şəraitin yaradılması və yolların hərəkət hissəsində yol tikintisi və təmiri ilə əlaqədar olmayan yüklərin boşaldılması və yüklənməsi üçün xüsusi icazə alınmalı olacaq. Eyni zamanda, reklam və digər məlumat qurğularının yerləşdirilməsi üçün də razılaşdırma tələb olunacaq.

Milli Məclisdə "Təhsil haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi də müzakirə edildi. Elm və təhsil komitəsinin sədr müavini Bəxtiyar Əliyev bildirdi ki, dəyişikliyə əsasən, magistratura elmi-pedaqoji kadr potensialı, maddi-texniki bazası və təhsil infrastrukturu kifayət qədər yüksək olan ali təhsil müəssisələrində və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilatda yaradıla bilər. O qeyd etdi ki, dəyişiklik elm və təhsil sahəsində inteqrasiyanı təmin etmək məqsədi ilə magistratura səviyyəsinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilatda da yaradılmasını nəzərdə tutur.

"Kütləvi informasiya vasitələri haqqında" Qanunda dəyişiklik edilməsi barədə layihə də təsdiqləndi. Layihə haqqında deputat Rafael Hüseynov məlumat verərək bildirdi ki, qanunun 14-cü maddəsinə edilən dəyişikliyə əsasən, dini mətbu nəşrlərin təsis edilməsi ilə bağlı müvafiq icra hakimiyyəti orqanının rəyi nəzərə alınmalıdır.

"Banklar haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi barədə İqtisadi siyasət komitəsinin sədri Ziyad Səmədzadə məlumat verdi. Dedi ki, mövcud qanuna bank aktivlərinin açıq hərrac yolu ilə satılması bankın müflis elan olunması haqqında məhkəmə qərarının qanuni qüvvəyə minməsi tarixindən 30 gündən gec olmayaraq keçirilməsi ilə bağlı yeni bəndin əlavə olunması təklif edilir.

Deputatlar "Müflisləşmə və iflas haqqında" Qanuna əlavə və dəyişiklikləri də təsdiqlədilər.

**Deputat İlyas İsmayılov banklardan bəhs olunarkən Mərkəzi Bankın istisna olunmasını düzgün saymadı:** "Mərkəzi Bank da bankdır da, niyə burada əksini tapmır?"

Plenar iclasda "Polis haqqında" Qanuna da dəyişiklik edildi. Qanunun 14-cü maddəsinə (İctimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində polis əməkdaşının vəzifələri) yeni əlavə edilən bəndə əsasən kütləvi idman tədbirlərinin və idman yarışlarının keçirilməsi zamanı idman obyektlərinə, tamaşaçılar üçün nəzərdə tutulmuş yerlərdə, eləcə də idman obyektlərinə bitişik ərazilərdə və təxliyyə yollarında zorakılığın qarşısını almaq, yarış iştirakçılarının və tamaşaçıların təhlükəsizliyini və ictimai asayişi təmin etmək də polis əməkdaşının vəzifəsi olacaq.

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 221 (6249) 7 oktyabr 2015

# Təhsil sahəsindəki rüşvətin kökünü necə kəsmək olar?

**Təhsil sahəsindəki rüşvətxorluq və neqativ hallar hər kəsə məlumdur. Müəllimlər günündə, 8 martda müəllimlərin şagirdlərdən pul yığması, şagirdlə müəllim arasındakı pul söhbəti təbii ki, şagirdləri təhsildən soyudur, onları gələcəkdə rüşvətə meylli etməklə yanaşı, bu yolla bütün problemləri həll etməyin mümkünlüyü fikrini aşılayır.**

Rüşvət ali məktəblərdə də hökm sürür. Ali təhsil müəssisələrinin bir çoxunda yaranan vəziyyət tələbələrin rüşvətsiz oxumasını mümkünsüz edir. Onların əksəriyyəti təhsil müəssisəsindən çox, biznes məkanını xatırladır. Bəs, təhsil sahəsindəki rüşvətin kökünü kəsməyin bir yolu varmı?

**Azad Müəllimlər Birliyinin sədri Məlahət Mürşüdlü təhsil sahəsindəki rüşvətin qarşısını iki yolla almağın mümkün olduğunu bildirdi:** "Müəllimlə şagird arasındakı pul dialoqu şagirdin körpə yaşından əxlaqi mənəvi keyfiyyətlərinin öldürülməsi, uşağın rüşvətə alışdırılması deməkdir. Təcrübə göstərir ki, müvafiq qanunlarla bunun qarşısını almaq qeyri-mümkündür. Ancaq iki yol var. Birincisi, valideynlərin dirəniş göstərməsidir. Müəllim pul istəyəndə verməməli, ictimai qınaq, kampaniya olmalıdır. Valideynlər müəllim pul istəyən kimi aparıb verir, sonra da başlayır şikayət etməyə. İkinci yolu isə müəllimlərin əmək haqlarının artırılmasıdır. Müəllim normal məvacib almalıdır ki, valideynin əlinə baxmasın. 130-150 manatla ailə saxlamaq mümkünsüzdür. Düşünürəm ki, müəllimlər çox zaman ehtiyac ucbatından bu addımı atırlar. Burada bir sual yaranır ki, niyə özəl məktəblərdə çalışanlar rüşvət almır? Çünki onlar ayda 700 manat maaş alır və rüşvətə ehtiyacları olmur. İş yerlərini itirməmək üçün də bu cür neqativ yollara əl atmır. Ancaq digər orta məktəblərdə bu belə deyil".



**Məlahət Mürşüdlü:**
"İki yol var"



**Etibar Əliyev:**
"Bizdə sanki rüşvətin sinonimi təhsildir"

**M.Mürşüdlü müəllimlərin peşə bayramında könüllülük prinsipi ilə hədiyyə qəbul etmək haqqının olduğunu dedi:** "Müəllimlərin peşə bayramı var. Düşünürəm ki, bu peşə bayramında müəllimin haqqıdır ki, hansısa şagirdindən və ya ailədən hədiyyə alsın. Ancaq bu, könüllülük əsasında olmalıdır. Təəssüflər olsun ki, bu, çox ifrat dərəcədə, eybəcər şəkildə həyata keçirilir. Hətta müəllimlər uşaqlara məbləği də deyirlər. Misal üçün, deyir "30-50 manatdan aşağı pul yığsanız götürməyəcəyəm". Müəllimlərin bu cür hökmlə danışmasında valideynlərin də böyük günahı var. Valideyn şərait yaradır ki, müəllim ondan pul istəsin və hökmlə danışsın. Bütün sinif valideynləri birlik nümayiş etdirib pul verməsə, müəllim cəsarət edib pul istəyə yaxud pul verməyən uşağı incidə bilməz. Əgər valideyn haqlıdırsa, cəsarət edib uşağını pul üçün incidən müəllimi ictimaiyyət qarşısında mədəni şəkildə biabır etsin. Bir sözlə, təhsil sahəsindəki rüşvətin qarşısını almaq üçün müəllimlərin əmək haqqı yüksəldilməli və ictimai dirəniş olmalıdır".

**"XXI əsr" Təhsil Mərkəzinin rəhbəri Etibar Əliyev rüşvətin sinoniminin sanki təhsil olduğunu dedi:** "İnsanların təhsildə rüşvətxorluq haqqında fikirlərində yenilik yoxdur. Yaxşı, nə baş verir ki, rüşvətxorluq var gücü ilə işləyir? Təhsildə rüşvətxorluğun kökünün kəsilməsinin çözümü barədə soruşursunuz. Məncə, həm korrupsiyanın, həm də rüşvətxorluğun kökünün kəsilməsində irəliləyiş var. İndi bunların anatomiyasına diqqət edək. Təhsilin məktəbə qədərki təhsil pilləsi Təhsil Nazirliyinə tabe deyil. Deməli, burada rüşvətxorluğa Təhsil Nazirliyi cavabdehlik daşımır. Birinci siniflərə şagird qəbulu elektron sistem vasitəsilə həyata keçirilir. Rüşvətxorluğun kökü demək olar ki, kəsilib. Vaxtilə ən böyük rüşvətxorluq mənbəyi olan buraxılış imtahanlarını bir neçə ildir ki, TQDK həyata keçirir və rüşvətin kökü kəsilib. Orta məktəblərə müəllim qəbulu və yerdəyişməsi imtahanla həyata keçirilir, rüşvətxorluğun kökü kəsilib. Məktəb direktorları təlimlərdən keçdikdən sonra seçilib təyin olunurlar, burada da rüşvətxorluq istisnadır. Orta təhsildə isə yalnızca direktor özbaşınalığı qalır. Müəllimlərdən əlavə pullar tutulur və müəllimlər məcbur edilir ki, şagirdlərdən vəsait tələb etsinlər. Bu halların kökü hələlik kəsilməyib. Peşə təhsili məktəblərinə qəbulda hansı rüşvətxorluqdan danışmaq olar ki, orta məktəb məzunlarının cəmi 13-15 faizi təhsilin bu pilləsinə üz tutur, özü də könülsüz. Kollec və ali məktəblərə tələbə qəbulunu TQDK həyata keçirir. Burada rüşvətin olub-olmamasını hamı gözəl bilir. Kolleclərdə semestr imtahanlarına cavabdehliyi kollec direktorları daşımalıdırlar. Neqativ halların kökü kəsilməyib. Ali məktəblərdə semestr imtahanları mərkəzləşmiş şəkildə həyata keçirilir. Semestr və dövlət imtahanlarında rüşvətxorluq varsa, deməli, rektorlar cavabdehlik daşıyır. Ali məktəblərdə köçürülmə üçün şərtlər o qədər sərtləşdirilib ki, müraciət edənlərin sayı bəlkə də 20 dəfə azalıb. Təhsildə tələbə köçürmələri rektorların "Axilles dabanı" idi. İndi rektorlar artıq köçürməni "menyu"dan çıxarıblar".

**E.Əliyev Dövlət Proqramı ilə Azərbaycan vətəndaşlarının xarici ölkələrin ali məktəblərində təhsil almaları üçün göndərilməsi prosesinin tam şəffaf həyata keçirildiyini dedi:** "Korrupsiyaya gəldikdə isə dəyəri yarım milyard manatı ötən layihə və proqramların icrası çoxdan qurtarıb və üstündən də su içilib. Bütün bunları həm də digər dövlət qurumları ilə müqayisə etmək üçün sadaladım".

❑ **Günel MANAFLI**

# Panama



**Samir SARI**

**Amerika qitəsinin mərkəzində yerləşən Panama dövləti ilə bağlı bizim kənddə bir gülməcə vardı. Deməli, bir dəfə kəndimizin parkında oturan vəzifəli ağsaqqallar qəzet oxuya-oxuya müzakirə aparırmışlar. Biri "Kommunist" qəzetini açıb ki, rəsmi xronikada "Panamalı qonaqlar Bakıda" başlıqlı xəbər verilib. Ağsaqqallardan biri yüngülcə qeyzlənib: "Heç dəxli var? Ona qalsa bizim kənddə də nə qədər panamalı kişi var".**

Bəlkə bu söhbəti çoxları tutmayacaq, ona görə də deyim ki, o vaxtlar bizim kənddə pis-yaxşı vəzifəsi olanlar və müəllimlər başlarına şlyapa qoyardılar və o baş geyiminin adı ümumi olaraq panamaydı. "Kommunist" qəzetinin xəbər və başlıq siyasətinə etiraz edən ağsaqqal başı papaqlı qonaqların Bakıda olmasının ictimai-siyasi əhəmiyyət kəsb etmədiyini vurğulayıb. Çünki onun dünyada Panama adlı dövlətin mövcudluğundan xəbəri olmayıb.

Əslində yəqin ki, ölkənin, eləcə də dünyanın çox yerində insanların tam əksəriyyəti Panama adlı ölkənin olmasından xəbərsizdir. Çünki o məşhur ölkə deyil. Biz heç Panamanın qonşuluğundakı Surinamı da tanımırıq, Qvatemalanı-zadı da. Amma Nikaraquanı tanıyırıq. Ona görə ki, sovet təbliğatı təxminən 15 il "Sandino milli azadlıq cəbhəsinin partizanları", "Daniel Orteqanın rəhbərlik etdiyi azadlıq döyüşçüləri" deyə-deyə zəhləmizi tökürdülər. Yuxudan dururduq, televiziya və radio Nikaraquadan danışırdı, qəzeti açırdıq, mütləq Nikaraqua xəbərləri oxuyurduq. Burdan-bura ölkədə Qusar, Zərdab kimi rayonların mövcudluğundan xəbərsiz olan tələbə yoldaşlarımız vardı, Nikaraquanı tanıyırdılar.

Bir də Panamanın adı təxminən 20-22 il öncə bütün dünyada məşhur oldu. O da ona görə ki, ABŞ-la Panama arasında müharibə düşdü. Məsələ belə idi: bu dövlətin başçısı Manuel Noryeqa adlı bir polkovnik idi, çörəyi narkotik maddə tranzitindən çıxırdı, ABŞ da tez-tez ona xəbərdarlıq edirdi ki, a kələ, özünü yığışdır, axırı pis olacaq. Noryeqa bu hədələri qulaqardına vururdu, deyirdi, Panama müstəqil dövlətdir, heç kəs onun daxili işlərinə qarışa bilməz. Amma bir gecə ABŞ kommandasları Panamanın daxilinə yeridilər, bir-iki saatlıq atışmadan sonra Panamanı işğal etdilər və Noryeqanı əsir götürüb mühakimə eləməyə apardılar. Adama iş də verdilər, hazırda bilmirəm, buraxılbmı, yoxsa türmədədir. Bəlkə də ölüb.

Xüləs, sözümün canı odur ki, Panama belə bir ölkədir. Həmin bu ölkənin adamları, yəni panamalı qonaqlar hələ 30 il əvvəl də şəhərimizə gəlib-gedərmişlər və bu barədə o dövrün qəzetləri yazarmış.

İndi budur, bizim xarici işlər nazirimiz Elmar Məmmədyarov da durub burdan basa-basa Panamaya gedib və orada Azərbaycanla Panama arasında ikitərəfli məsləhətləşmələr haqqında anlaşma memorandumu imzalayıb.

Məmmədyarov ölkənin vitse-prezidenti və xarici işlər naziri xanım İsabel de Sant Malo de Alvarado ilə də görüşüb, elə memorandumu da orda imzalayıb. İndən belə biz Panamayla "ikitərəfli məsləhətləşmələr haqqında anlaşma"lıyıq.

Ciddi sənəddir. Bu sənəd iki ölkə arasında münasibətlərin istiləşməsinə, əlaqələrin genişlənməsinə böyük töhfə verəcək. Belə deyirlər. Yalançı XİN olsun.

Bizim nazir də qeyd edib ki, Azərbaycan və Panama arasında mövcud əməkdaşlığın enerji və sərmayələr də daxil olmaqla, digər sahələrə də sirayət etməsi vacibdir.

Hələ güman var ki, elm-təhsil, təlim və digər humanitar sahələrdə əməkdaşlıq üçün əlverişli imkanlar açılacaq. Məmmədyarov buna əmindir. Panama nanotexnologiyalar sahəsində Yaponiyadan, Cənubi Koreyadan üstündür axı.

Ən maraqlısı odur ki, nazirimiz panamalı həmkarına Bakı-Tbilisi-Qars dəmir yol xəttindən, yeni tikilmiş Bakı Beynəlxalq Dəniz Ticarət Limanından da danışıb. Amma bu söhbətin Panamaya nə dəxli var, anlaşılan deyil. Panamanın özünün bir sahilini Sakit okean yuyur, bir tərəfini isə Atlantik okeanı. Hələ iki okeanı birləşdirən yeganə kanal da Panamadan keçir. Kimə liman göstəririk?

Söz yox, Elmar müəllim də öz növbəsində xanım İsabel de Sant Malo de Alvaradonu ölkəmizə qonaq çağırıb. O, dəvəti qəbul etsə, 40 ildən sonra ölkəmizə gələn ilk panamalı qonaq olacaq. Yeni strateji müttəfiqimizə eşq olsun!

**P.S.** *Yeri gəlmişkən, artıq kəndimizdə başına panama qoyan adamlar çox azdır və onlar Panama panaması qoymurlar, "kitayski" panama qoyurlar.*

# Ziya Məmmədovun qardaşı "ailə sirlərini" açdı

## Elton Məmmədov niyə seçkiyə qatılmamasından və Anar Məmmədovun görünməməsindən danışdı

**"Bütün mətbuat ictimaiyyəti bilsin ki, biz Məmmədovlara qarşı heç bir qərəzli mövqe yoxdur".**

Bu sözləri modern.az saytına açıqlamasında deputat Elton Məmmədov son vaxtlar nəqliyyat naziri qardaşı Ziya Məmmədov, qardaşı oğlu Anar Məmmədov və digər bacı və qardaşları haqqında mətbuatda gedən informasiyalara münasibət bildirərkən deyib. O qeyd edib ki, onlar ölkə rəhbərliyinin ətrafında sıx birləşən bir ailədir, nəsildir.

"Bizə həvalə edilən bütün səlahiyyətlərimiz çərçivəsində ölkəmizə, dövlətimizə, xalqımıza xidmət edirik. Qalan şayiələr yanlışdır, şantaj xarakterlidir, sadəcə, ictimaiyyəti çaş-baş salmaq üçündür".



Elton Məmmədov

**Elton Məmmədov özünün yenidən namizədliyini verməməsini elmi fəaliyyətlə məşğul olması ilə əlaqələndirib:** "Kifayət qədər böyük həcmli, tutumlu elmi layihələrim var, elmi tədqiqatlarımla məşğul olacam. 5 il deputatlıq səlahiyyətinin icrası ilə məşğul oldum. Seçicilərimə təşəkkür edirəm ki, məni 15 il dəstəkləyiblər, prezidentə təşəkkür edirəm. Alim, professor kimi fəaliyyətimi davam etdirmək istəyirəm".

**Deputat eyni zamanda qolf klubunun açılışında Azərbaycanın Qolf Federasiyasının prezidenti Anar Məmmədovun iştirak etməməsini belə izah edib:**

"Mütləq deyil ki, hər hansı bir açılışda federasiya prezidenti və yaxud nazir iştirak etsin. Protokol var, orada müəyyənləşdirilir ki, tədbirə hansı formatda dəvətlər edilir. Bu mənada kiminsə fərdi yanaşması, fərdi mülahizəsi, özünə sərf edən düşüncə tərzi ilə ictimaiyyətə açıqlama verməsi hesab edirəm ki, yanlış fikirlərdir. Bundan isə uzaq və səmimi olmaq lazımdır. Ona görə də biz səmimi insanlarıq və cənab prezidentin ətrafında sıx birləşən, onun tapşırığı və tövsiyəsi ilə xalqa xidmət edən ziyalılarıq".



# Meşəyə konsul gəlir

Zamin HACI
zaminhaci@gmail.com

## Yaxud Qarabağ həqiqətləri Panama kanalında

**Xarici işlər naziri Məmmədyarov qaçan səfirlərini tutmaq üçün Panamaya gedibdir. Zarafat edirəm, səfərin məqsədi sirr olaraq qalır. Bəzi versiyalara görə, hakim təbəqənin Panamada offşor hesabları, gizli şirkətləri var, Qərblə münasibətlər kəskinləşdiyi üçün naziri hər ehtimala qarşı kassaya baxmağa göndəriblər. Nə biləsən sabah nə qərar çıxacaq? Bəlkə Obama "Azərbaycan" qəzetində Bəxtiyar müəllimin yazdığı kəskin məqalələrdən qəzəblənib hesablara həbs qoydu? İllərlə qara gün üçün toplanan neft pulları və sairə rüşvətlər batıb gedər. Mümkündür ki, Elmar müəllim özü ilə yekə bir kisə də aparıb, offşor hesablardan pul çəkib gətirəcəkdir.**

Panamada dünyanın ən məşhur gəmiçilik kanallarından biri var, bu kanal Sakit və Atlantik okeanları birləşdirir. Bizim bir iqtisadçı professor isə vaxtaşırı elmi-romantik, iqtisadi-geopolitik təklif irəli sürür, deyir gərək Xəzər dənizindən Hind okeanına kanal qazaq. Məqsəd isə okeana birbaşa çıxış qazanmaq imiş. Ta İran buna razıdırmı, o uzunluqda kanalı qazmağa neçə manat lazımdır, okeana deşik açsaq dünya okeanı səviyyəsindən 27 metr aşağı olan Xəzər qalxıb sahilboyu hasarları dağıdarmı, ümumiyyətlə, okeana çıxmaq Novruzeli kişinin nəyinə gərəkdir - professor bunları müzakirə etmək fikrində deyil. "Qoy desinlər Qasıməlinin çustu var, Kim nə bilir altı yoxdur, üstü var" - bir qədim ata sözümüzdə deyilən kimi.

Bax, ola bilər Elmar müəllim məhz kanal ideyasından ruhlanaraq Panama təcrübəsini öyrənməyə getmişdir.

Daha bir versiya Qarabağ probleminin həlli yolunda Panamanın göstərdiyi dərin təşəbbüslər, o cümlədən ölkəmizin xaricdə tanıdılması proqramında panamalıların aktivliyidir. Örnək üçün, Panama xarici işlər naziri İsabel de Sant Malo de Alvarado ilə görüşdə Paris danışıqlarının Praqa çərçivəsində müzakirə edilən Lissabon sammiti müzakirə edilmişdir. Zarafat edirəm, bu da yalandır. Panamanın nəyinə gərəkdir Qafqazda kimlər bir-birini qırır? Adamlar özlərinə bir kanal qayırıb oturublar üstündə, gəmi ötüşdürüb pullarını qazanırlar.

Eyni vaxtda prezidentin sərəncamı ilə Domeniko Koko Azərbaycanın İtaliyada, Kataniya şəhərində fəxri konsulu qoyulmuşdur. Koko müəllim də şanlı diplomatiya məktəbimizin yetirməsidir, ümid edirik o, axırda Arif müəllim kimi paraları götürüb qaçmayacaqdır. Əlbəttə, bunu da zarafat üçün yazdım, Koko bəyi respublikamızda heç kim tanımır. Ən yaxşı konsul, heç kimin tanımadığı konsuldur - milli diplomatiya ənənələrimizə görə belədir.

Ümumiyyətlə, Siciliya mafiyanın vətəni sayılır, bu baxımdan onun mərkəzi şəhəri Kataniyada Azərbaycanın konsulu, üstəlik, fəxri konsulu olması fəxr edilən bir haldır. Çoxdan lazım idi. Bu boyda mafiozumuz var, bəs bu adamlar Siciliyaya təkmilləşdirmə kursuna-filana gedəndə onları kim qarşılayıb müşayiət etməlidir? Ümidvarıq Domeniko bəy bu çür çətin, məsul və şərəfli peşənin öhdəsindən uğurla gələcəkdir. Kim bilir, bəlkə də öz millətimizin səfirindən başqa millətin konsulu daha yaxşı olacaqdır. Milli-mənəvi dəyərlərə daha artıq hörmət bəsləyən çıxacaqdır. Koreyalı otüstü hokkeyçi qızları milliləşdirib Çan Əliyeva, Cun Qarayeva elədiyimiz kimi, bəlkə Domeniko Koko müəllimi də milli şəklə salıb Dönməzqulu-filan eləyə bilərik. Hələ vaxtımız var.

Sonda daha bir uğurlu və potensial təyinat haqda xəbər vermək istərdik: Ağdaş rayonunda deputatlığa namizədliyini irəli sürən yoldaşlardan biri ixtisasca meşəbəyidir. Vəziyyəti bundan gözəl anlayan insan ola bilərmi? Mən hər bir kəsi, hətta o dairədə səsvermə hüququ olmayan vətəndaşlarımızı da həmin meşəbəyiyə səs verməyə çağırıram. Prinsipcə, bu, deyəsən təşviqat müddəti haqda qanunu pozmaqdır, amma meşədə nə qanun? Bacar, sağ qal. Əsas məsələ budur.



# Bakı-Amerika münasibətlərində mühüm gözlənti - iddia

## Suriya böhranı qarşı duran Qərb və Rusiya üçün Azərbaycanın dəyərini artırıb; "Böyük iyirmilər"in Antalya sammiti rəsmi Bakı üçün də ciddi test olacaq; siyasi məhbusların azadlığı üçün növbəti şans pəncərəsi açılır...

**Azərbaycan prezidenti İlham Əliyev nə ötən ayın sonlarında Moskvaya - məscid açılışına , nə də az sonra Nyu-Yorka - BMT Baş Məclisinin yubiley toplantısına getmədi. Bəzi analitiklər bunu rəsmi Bakının Moskva və Vaşinqtonla ənənəvi balanslı münasibətlərində pauza götürmək istəyi ilə bağladılar. Yəni iki güc mərkəzi arasında yaranmış vəziyyətin mürəkkəbləşməsindən doğan gediş kimi təqdim elədilər.**

Əlalxüsus da Nyu-York səfərindən imtina belə rəy doğurdu ki, Azərbaycan rəhbəri son vaxtlar insan haqları ilə bağlı Vaşinqtonun sərt ritorikası fonunda, sadəcə olaraq, Ağ Ev başçısı Barak Obama ilə üz-üzə gəlməyi istəməyib. Belədirsə, üstəlik, Barak Obamanın Baş Məclisdəki məlum çıxışında, avtoritar ölkələrlə bağlı söylədikləri ciddiyə alınarsa, tərəflər arasında münasibətlərin heç də isti olmadığı qənaəti yaranar.

Ancaq Rusiyanın Suriyaya müdaxiləsi ilə artıq yeni bir situasiya yaranıb və bu situasiya qarşı duran güclər kimi Qərb və Rusiya üçün Azərbaycanın dəyərini artırmaqla yanaşı, Bakını növbəti kritik seçimlə üzləşdirib - Rusiyanı dəstəkləmək, ona arxa cəbhə olmaq və qarşılığında nəsə almaq, yoxsa qardaş Türkiyənin də yer aldığı Qərb koalisiyasında olmaq?

Sözsüz ki, çətin dilemmadır. Hətta neytral qalmaq, faktiki, mümkünsüz görünür. İş də ondadır ki, onsuz da təməl insan haqları ilə bağlı Qərblə, ABŞ-la münasibətlər qeyd edildiyi kimi, iliq deyil, üstəgəl, Suriya məsələsində Moskvaya Bakının hər hansı reveransı vəziyyəti daha da tündləşdirə bilər. Paralel surətdə qardaş Türkiyənin maraqları gözardı edilmiş olar.

***

Lakin bəzi mötəbər bilgilərə görə, rəsmi Bakı Türkiyəni küsdürmək xətti götürmək niyyətində deyil. Deməli, Qərblə, xüsusən də ABŞ-la münasibətləri sahmana salmağa maraq göstərilir ki, ən azından "Böyük iyirmilər"in (G20) gələn ayın 20-də Antalyada keçiriləcək sammitinə ölkə başçısı İlham Əliyev, necə deyərlər, hazırlıqlı yollana bilsin.

Məlumdur ki, Türkiyə ev sahibi qismində öz hüququndan istifadə edərək ali tədbirə yeganə qonaq dövlət kimi Azərbaycanı, onun prezidentini dəvət edib. Bəzi informasiyalara görə, İlham Əliyev tənqidlərdən yayınmaq üçün Qərb liderləri, o sırada Obama ilə üz-üzə gəlməmək üçün bu toplantıya da qatılmaya bilər.

Ancaq bizcə, tələsik qənaətdir. Əvvələ, dəvət Türkiyə prezidentinə məxsusdur və ondan imtina qardaş ölkəni pərt edə bilər - axı məntiqlə imtina olacaqdısa, o zaman Ankara başqa bir dost dövləti (tutaq ki, Qazaxıstanı) dəvət edərdi. İki qardaş ölkə prezidentinin belə bir ali tədbirdə qoşa iştirakı isə Türkiyə və Azərbaycanın gücünə istər-istəməz güc qata, onların problemlərinə dünyanın diqqətini artırardı.

**Müxtəsəri, bu, Azərbaycan üçün qiymətli bir şans kimi görünür və böyük ehtimalla o reallaşdırılacaq. Hərçənd, Azərbaycan prezidenti ona kimi situasiyanı yumşaldacaq bəzi "pereventiv addımlar" atmaq zorundadır. "Turan" İnformasiya Agentliyinin direktoru Mehman Əliyevə görə, Azərbaycan tərəfi ilə bu yöndə artıq məsləhətləşmələr başlayıb və 20 noyabradək xeyli məsələlər həll oluna bilər:** "İndiki məqam - seçkiqabağıdır. Ona görə də bu mənada gərginlik keçirirlər. Amerikalılar üçün ən vacib məsələ isə stabillikdir".

Sözsüz ki, 20 noyabradək Azərbaycanda parlament seçkiləri keçiriləcək və seçkinin nəticələrinə konkret olaraq Vaşinqtonun reaksiyası vəziyyətə öz məxsusi möhürünü basacaq. Bu mənada ehtimal eləmək mümkündür ki, aradakı gərginliyin daha da artmaması üçün noyabrın 20-dək Azərbaycan iqtidarı siyasi məhbusların azadlığı ilə bağlı hansısa pozitiv addım da atsın.

***

Maraqlıdır ki, bu arada ABŞ-ın da Bakıya ünvanlı yeni ciddi reveranslar haqda düşündüyü haqda iddialar yayılıb. Məsələn, NATO Əməkdaşlıq İnstitutunun rəhbəri Fərrux Məmmədov hesab edir, Amerika Azərbaycanın hesabına Rusiyanı mövcud enerji bazarından sıxışdırmağa, bunu da Rusiyanın qarşısına SOCAR-ı çıxarmaqla - Güney Qafqazda "ikinci BP"ni yaratmaqla həyata keçirməyə çalışır. Ötən sayımızda vurğuladığımız kimi, əsas məqsəd Rusiyanı bölgənin siyasi və iqtisadi maraqlarından uzaq tutmaqdır.

**Sitat:** "Qərb üçün Rusiyanın Cənubi Qafqazdakı vahid hakimliyinə son qoyulması və Yaxın Şərqdəki mövcudluğunun minimuma endirilməsi əsas hədəfdir. Bu strateji gedişin ən önəmli hissələrindən biri Azərbaycanla bağlıdır. Həmçinin Azərbaycanın Avropada mövcud enerji bazarındakı mövqeyinin genişləndirilməsi və daha çox pay almasıdır. "LUKoyl" və "Qazprom" kimi şirkətlərin əsas enerjidaşıyıcı qismində olması Qərb üçün arzuolunmazdır. Həmin mövqelərin SOCAR-a verilməsi gözlənilir. Amerika digər tərəfdən, Avropa Birliyini, SOCAR-ın hələ də imzalanması gözlənilən 500 milyonluq layihəsini də tezliklə imzalamağı çağırıb. Bu, əslində Qərb və Avropanın Azərbaycana siyasi dəstəyinin göstəricisidir".

***

Bu iddialarda həqiqət payı az deyil. Hər halda, faktdır ki, Rusiyanın Suriyaya hərbi müdaxiləsi ilə onun Qərblə münasibətləri kulminasiya fazasına girib, dost-rəqibləri təzə seçim qarşısında qoyub və tezliklə düyünün açılması gözlənilir. Bu üzdən də Amerikanın Güney Qafqaza, Azərbaycana yönəlik yeni jestlərini, iqtisadi və diplomatik həmləsini gözləməyə dəyər. Qalır bu reverans və jestlərin Bakıda necə dəyərləndiriləcəyi və G20 testindən onun necə çıxacağı.

❑ **Siyasət şöbəsi**

**Son illər Rusiya prezidenti Vladimir Putinin gözlənilməz addımları dünyanı təəccübləndirir. 2008-ci ildə Rusiya Gürcüstana hücum edərkən Putinin necə israrçı mövqe nümayiş etdirdiyi hələ də yaddaşlardan silinməyib. Rusiya qoşunları az qala paytaxt Tiflisə qədər irəliləmişdi. Həmin vaxt Putin Cənubi Qafqazda Rusiyanın itirilməkdə olan mövqelərini bu hücumla müəyyən qədər geri qaytardı.**



# Qərb Putinlə niyə bacarmır?

## Ərəstun Oruclu: "Qərb Suriyaya girmək üçün Rusiyaya ona görə icazə verdi ki..."

Sonra Ukraynada məlum hadisələr başladı. Rusiyanın Qərbin təzyiqi ilə Ukraynadan çıxacağı və bu ölkədə öz təsir imkanlarını itirəcəyi haqda proqnozlar verilərkən dünya tamamilə əks mənzərə ilə qarşılaşdı. Putin Krımı işğal elədi və Rusiyanın tərkibinə qatdı. Hətta referendum da keçirdi. Ukraynanın bir neçə şərq vilayətlərini işğal etdi. Qərbin müxtəlif sanksiyalarına rəğmən Putin atdığı addımların heç birindən geri çəkilmədi. Məhz Rusiyanı cəzalandırmaq, onun iqtisadi, hərbi gücünü azaltmaq və siyasi təsir imkanlarını neytrallaşdırmaq üçün Amerika neftin dünya bazarındakı qiymətini xeyli azaltdı. Fəqət, Qərb yenə də öz istəyinə nail ola bilmədi.

Bəs bunun səbəbi nədir? Qərb - əlində kifayət qədər imkanları olan bir qüvvə nəyə görə Rusiya ilə bacarmır? Gürcüstan, Ukrayna hadisələrindən və son günlərdə isə Suriyaya hərbi müdaxiləsindən sonra belə bir rəy yaranır ki, Qərb Rusiya ilə bacarmır.

**Politoloq Ərəstun Oruclu deyir ki, Putinin geri çəkilmək üçün heç bir əsası yoxdur. Geri çəkilmək Putin üçün məğlubiyyət deməkdir:** "Qərbin Rusiyaya qarşı tətbiq etdiyi sanksiyalar kifayət qədər neqativ effekt verib. Bu, danılmaz bir faktdır. Amma Rusiya da böyük dövlətdir. Onun geri çəkilməməsi üçün hərbi imkanları, böyük gücü var. Həm də Rusiyanın geri çəkilmək üçün heç bir əsası yoxdur. Geri çəkilən Rusiya siyasətçisi təbii ki, daxildə məğlub olacaq. Ona görə də Rusiya da geri çəkilmək istəmir".

**Politoloqun fikrincə, Putin Suriyada yaşananlara müdaxilə etməklə Ukraynadan çəkilmək istəyir:** "Rusiya Suriyaya müdaxilə etməklə Ukraynadan geri çəkilməyə hazırlaşır. Əsas məsələ budur. Çünki Putinin Ukraynaya müdaxiləsi, Ukraynaya qarşı yürüdülən siyasət Rusiyanın daxilində neqativ effekt doğurur və getdikcə də güclənir. Amma Rusiyanın Suriyada olması Rusiya cəmiyyətinə belə təqdim oluna bilər ki, Rusiya qlobal güc kimi istədiyi hərbi əməliyyatı həyata keçirir, Suriyada terrorçuları bombalayır, Əsədi müdafiə edir və Rusiyaya heç kim mane ola bilmir. Məncə, bunun səbəbi bu ola bilər. Bu, göründüyü kimi sadə deyil, yəni Rusiya istədi getdi və ona heç kim mane ola bilmədi. Ən azı İraqın hava məkanı bu gün Qərbin nəzarətindədir. İstəsəydilər, hər halda, Rusiya təyyarələrini Suriyaya buraxmazdılar. Amma Rusiya təyyarələri Suriyaya gedə bildi. Rusiyanın bu siyasətinə, bu yanaşmasına Qərb də anlaşma ilə yanaşır. Çünki Qərbə ilk növbədə lazımdır ki, Rusiya Ukraynadan çəkilsin".

### Natiq Miri: "Bu siyasətlə ABŞ-ı, onun müttəfiqlərini aldatmaq mümkün olmayacaq"

**Politoloq Natiq Miri Rusiyanın Suriyaya müdaxiləsinin yanlış olduğunu düşünür. Onun sözlərinə görə, Rusiya itirilmiş nüfuzunu geri qaytarmaq üçün son şans olaraq bu addımı atıb:** "Ola bilsin ki, Rusiya təbliğat maşını güclüdür. Həm ölkə daxilində, həm də ölkə xaricində müəyyən dərəcədə ictimai rəy yarada bilir. Ancaq sözün əsl mənasında sonuncu Suriya həmləsi Rusiyanın xilası üçündür. Çünki Rusiya Ukraynada istədiklərini edə bilmədi və böyük maliyyə və insan itkisi ilə üzləşdi. Bunun nəticəsində Qərbin ciddi sanksiyaları ilə üzləşdi ki, bu da artıq il ərzində Rusiyada ümumdaxili məhsulun 4 faiz geriləməsinə səbəb oldu. İndiki vəziyyətdə Rusiyada çıxış yolu kimi, Putini inandırdılar ki, həqiqətən diqqətləri Ukraynadan yayındırmaq və yeni bir Suriya həmləsi ilə Rusiyanın dünyada əhəmiyyətini artırmaq lazımdır ki, Rusiya yenidən dünya siyasətinə qayıda bilsin, hegemonluğunu bərpa etsin. Məsələ bundan ibarətdir. Bu, Rusiyanın son həmləsidir. Qısamüddətli beynəlxalq ictimai rəydə gözqamaşdırıcı parıltılar yarada bilər. Ancaq uzun müddətli perspektivdə bu, Rusiya üçün acınacaqlı məğlubiyyətlə nəticələnəcək. Artıq bunun işartıları hiss olunmaqdadır. Rusiya dünənə kimi Yaxın Şərqdə düşmən obrazında deyildi. Suriyanın bombalanması ilə artıq Rusiyanın düşmən çevrəsi genişlənməkdədir. Bütün ərəb dünyasında, sünni dünyasında Rusiya düşmənə çevrilib. Bu koalisiyanın içərisində qardaş Türkiyə də var. Bir neçə gündür ki, Rusiya Suriyanı bombalasa da, artıq çoxsaylı itkilər verib. Rusiyaya başda Amerika olmaqla, digər dünya dövlətləri də xəbərdarlıqlar edir. Bütün bunlar Rusiyanın güclü olması ilə deyil, əksinə, onu bu vəziyyətdən çıxarması üçün atılan siyasətlə əlaqəlidir. Putinin Suriya ilə bağlı siyasəti alınmadı. Obama-Putin görüşünün də fiasko ilə nəticələndiyinin şahidi olduq. Rusiya yenə də növbəti səhvini etdi. Görünür, Moskva başqa bir addımı olmadığı üçün belə bir siyasət yürütdü. Bu siyasətlə ABŞ-ı, onun müttəfiqlərini aldatmaq mümkün olmayacaq".

❑ **İlkin MURADOV**

# Ərdoğan Rusiya qırıcılarını vurmaqla hədələdi



Rəcəb Tayyib Ərdoğan

**"Türkiyə öz hava məkanının Rusiya Hərbi-Hava Qüvvələrinin qırıcı təyyarələri tərəfindən pozulmasına bir daha yol verməyəcək və bunun qarşısı alınacaq". Virtualaz.org saytı xəbər verir ki, bu bəyanatla Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan oktyabrın 6-da Belçikaya səfəri zamanı keçirdiyi mətbuat konfransında çıxış edib.**

Ərdoğan bildirib ki, Türkiyə sərhədlərinin istənilən formada pozulması NATO sərhədlərinin pozulması deməkdir.

"Mən güman edirəm ki, Rusiya Türkiyə ilə münasibətlərini korlamaq istəmir" - deyə Ərdoğan əlavə edib.

# Ərdoğanın oğlu İtaliyaya köçüb



Bilal Ərdoğan

**Sosial şəbəkələrdə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın oğlu Bilal Ərdoğanın ölkədən qaçdığı barədə məlumat yayılıb. Türkiyənin "Cümhuriyet" qəzetinin məlumatla bağlı apardığı araşdırma zamanı Bilal Ərdoğanın İtaliyaya köçdüyü təsdiqlənib. Bilal Ərdoğan 2007-ci ildə Con Hopkins Universitetinin Bolonya filialında doktorantura təhsili alıb. O, bəzi səbəblərdən universitetdən möhlət götürüb, Türkiyəyə qayıdıb. Bu yaxınlarda isə Bolonyaya qayıdaraq təhsilini bərpa edib.**

Məlumatda Bilal Ərdoğanın xahişi ilə İtaliya hökumətinin onun üçün mühafizə ayırdığı da vurğulanıb. Ona İtaliyada 3-4 il müddətinə yaşamaq icazəsi verildiyi ehtimal olunur. Artıq Bilal Ərdoğanın övladlarının da bu ölkədə məktəbə yazıldığı bildirilir.

O, təhsilini bərpa etməklə bağlı müraciəti 7 iyun seçkilərindən sonra edib. Ərdoğan Bolonyada təhsil alsa da Modena şəhərində bir ünvan yaşayış yeri kimi qeyd olunub. Qəzetin əməkdaşları göstərilən ünvana baş çəkiblər, ancaq Ərdoğan və ailə üzvlərinin həmin ünvanda yaşadığına dair heç bir əlamət tapa bilməyiblər (APA).

# Türkiyənin Baş Qərargah rəisi Azərbaycana qarşı ikili standartları qəbul etmir



**Türkiyə Azərbaycanın ərazi bütövlüyünə qarşı ikili standartları qəbul etmir. Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə tam hörmət çərçivəsində və beynəlxalq hüquqa uyğun şəkildə nizamlanması üçün Türkiyənin dəstəyi davam edəcək.**

Bunu "Trend"ə müsahibəsində Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Hulusi Akar deyib.

Onun sözlərinə görə, Türkiyə beynəlxalq ictimaiyyətin Ukrayna problemində göstərdiyi həssaslığı Dağlıq Qarabağ münaqişəsində də göstərməsini gözləyir.

H.Akar qeyd edib ki, Avropa İnsan Hüquqları Məhkəməsinin (AİHM) ("Çıraqov və digərlərinin Ermənistana qarşı" işi) 2015-ci ilin iyun ayında çıxarmış olduğu qərar Azərbaycanın mövqeyinin haqlı olduğunu bir daha göstərdi və önəmli dönüş nöqtəsi oldu: "AİHM həm Ermənistanın haqsız mövqeyini təsbit etdi, həm də bu ölkənin münaqişədə əsas məsuliyyət daşıdığını ilk dəfə hüquqi baxımdan sübut etdi".



# Silahı Türkiyədən, yoxsa Rusiyadan alaq?

## Sülhəddin Əkbər: "Qardaş ölkədən silah alınması Azərbaycana daha sərfəlidir"

**Azərbaycan Türkiyədən 3 milyard dollarlıq döyüş vertolyotları alır. Türkiyənin TAİ şirkətindən 60 "T-129 ATAK" döyüş vertolyotunun alınmasına dair razılıq əldə olunub. Döyüş vertolyotları İtaliyanın "Agusta Westland" şirkəti ilə birgə istehsal olunur.**

"T-129 ATAK" vertolyotları iki pilotludur. Qanadlarının altında Türkiyənin "Roketsan" şirkətinin istehsalı olan 76 "hava-yer" tipli raket daşıyır. Əlavə yanacaq götürmədən 556 km məsafə uça bilir. Kreyser sürəti saatda 288 kilometrdir. "T-129 ATAK" vertolyotlarının Türkiyə silahlı qüvvələri tərəfindən istismara başlamasından sonra onun xarici müştəriləri də meydana çıxıb. "T-129 ATAK" vertolyotlarına maraq göstərən ilk xarici ölkə Azərbaycandır.

Qeyd edək ki, Azərbaycanın Silahlı Qüvvələrində olan döyüş vertolyotları əsasən Rusiya istehsalıdır, Mi-8, Mi-24, Mi-35 tiplidir. Azərbaycan bu yaxınlarda Rusiyadan Mi-35M vertolyotlarının böyük partiyasını alaraq, öz hərbi-hava qüvvələrinin imkanlarını xeyli gücləndirib.

İndi Türkiyədən 60 "T-129 ATAK" vertolyotlarının alınmasına dair sövdələşmə şübhəsiz ki, Azərbaycanın Ermənistan üzərində əzici hərbi üstünlüyünü daha da möhkəmləndirməklə yanaşı, onu regionun ən güclü hava qüvvələrinə malik ölkələrindən birinə çevirəcək.

İndiyə qədər döyüş vertolyotlarını Rusiyadan alan ölkəmizin bu dəfə qardaş dövlətə üz tutması maraq doğurur. Bəzi ekspertlər hesab edirlər ki, Türkiyə silahları daha keyfiyyətlidir.

**Sabiq MTN zabiti, AzDP sədri Sülhəddin Əkbər bildirdi ki, hərbi sənaye, silah-sursat məsələsi strateji məsələdir:** "Strateji məsələ olduğundan uzunmüddətli düşünülməlidir. Çünki alınan silahların, texnikanın ehtiyat hissələri, sursat məsələsi var. Silah alınan ölkə ilə siyasi, hərbi, iqtisadi münasibətlər düşünülməlidir. Həmin ölkədən, yaxud həmin ölkənin müttəfiqlərindən təhdid gözlənilirmi? Çünki bu vəziyyət yaranacağı təqdirdə, silah verməyə bilər. Məqsədli şəkildə keyfiyyətsiz silah verilə bilər. Xüsusilə müharibə dövründə bu daha vacib amildir. 2007-ci ildə "Azərbaycanın milli təhlükəsizlik konsepsiyası" qəbul olunub. Avroatlantik məkana inteqrasiya etməyi qarşısına strateji məqsəd qoyubsa, artıq Azərbaycan ordusu NATO standartlarına uyğun qurulmalıdır. Hərbi sənaye kompleksi də NATO standartlarına uyğunlaşdırılmalıdır. Eyni zamanda Azərbaycan silah-sursat məsələsində NATO silahlarına keçməlidir. Bu, Azərbaycanın uzunmüddətli planlarına daxildir. Bütün bunlar məsələnin ümumi tərəfidir.

Hazırda Azərbaycan Ermənistanla müharibə vəziyyətindədir. Rusiya Ermənistanın yaxın müttəfiqidir. Heç kimə sirr deyil ki, konfliktlərdə düşmən ölkənin arxasında Rusiya dayanır. Bu məsələ həll olunmayınca, Azərbaycan bunları nəzərə almalıdır. Bizə hansı silah verilirsə, onun təkmilləşdirilmiş forması Ermənistana verilir. Əgər Azərbaycan düşmən ordusunu əzsə, onların yerində rus ordusu görünəcək. Ona görə də Rusiya ilə bu məsələlərdə ehtiyatlı olmaq lazımdır. Çalışmalıyıq ki, NATO standartlarına uyğun silahlar alaq. Digər məsələ kommersiya tərəfidir. Adətən bütün dünyada silah bazarında silah müqavilələrinin üçdə biri rüşvət kimi verilir. Hansı ölkə ilə münasibətlər yumşaq olursa, adətən o ölkədən silah alınır. Azərbaycanın məhz buna görə İsrail, Rusiya, Türkiyə ilə silah müqavilələri var. Məsələdə diplomatik tərəflər də var".

**S.Əkbər hesab edir ki, Rusiyanın Ermənistana silah satması Azərbaycanı bu addımı atmağa vadar edə bilməz:** "Azərbaycan istəsə, Rusiya silahlarından daha təkmilini ala bilər. Düzdür, Rusiyanın bəzi silah sistemləri hələ də müasirliyini qoruyub saxlayır. Amma müasir dünyada bu məsələdə texnolojinin ön planda olduğunu görürük. Rusiyanın hərbi sənaye kompleksi geridə qalıb. Bu baxımdan NATO standartları ön planda tutulmalıdır. Türkiyədən silah alınmasının bir neçə üstünlüyü var; 2010-cu ildə "Strateji tərəfdaşlıq və qarışıqlı yardım haqqında hər iki ölkə arasında müqavilə imzalanıb. Ölkəmiz bundan sonra Türkiyəyə tam arxayın ola bilər. Qardaş ölkənin hərbi sənaye kompleksi NATO standartlarına uyğunlaşdırılıb. O baxımdan da Azərbaycana sərf edir. Türkiyə, İsrail və Pakistandan silah alınması Azərbaycanın hər cəhətdən maraqlarına uyğundur. Digər NATO ölkələrinin adını ona görə çəkmirəm ki, bildiyiniz kimi, konfliktlər səbəbilə Amerika və Avropa ölkələri Azərbaycana silah satmırlar".

❑ **Cavanşir ABBASLI**

# Pambıqçılardan Cahangir Hacıyevə və nazirə sərt ittihamlar

## Pambıq tarlalarda batır, sahibkarlar külli miqdarda ziyanda...



**“Qol çırmayıb sən tarlaya çıxanda, Səs yayılır hər mahala Süreyya" deyə, “sovetdən qalma” sadə pambıqçı qızlara mahnı həsr edilirdi. İndi isə pambıqçı qızlar kilosu 10 qəpikdən pambıq yığır və o pulu da ala bilmirlər. Ölkənin pambıqçılıq təsərrüfatı ümumilikdə həmin qızların yığım haqqından tutmuş pambığın yığılmasına qədər çeşidli problemlər məngənəsindədir...**

Artıq ölkədə pambıqçılıq sıradan çıxarılır desək, yanılmarıq. Aylardır ki, pambıq becərən fermerlər həyəcan təbili çalsa da, aidiyyəti qurumlar kənardan izləməyə üstünlük verdi. 20-dək rayonda pambıqçılıqla müqavilə imzalayan “CTZ- Aqro” MMC-nin öhdəliyini yerinə yetirə bilməməsi pambıqçıların külli miqdarda ziyana düşməsi və müflisləşməsi ilə nəticələnib. Bugünlərdə isə ortaya yeni bir şirkət çıxaraq fermerlərdən pambıq almaq istədiyini bəyan edib. “MKT İstehsalat Kommersiya” MMC-nin təkliflərindən sonrakı vəziyyət, ümumilikdə ölkənin pambıqçılıq təsərrüfatındakı durumla yaxından tanış olmaq, fermerlərin problemlərini yaxından dinləmək üçün əməkdaşımız Sabirabad rayonunda olub. Vəziyyət həqiqətən də acınacaqlıdır...

### “Yağış yağır, pambıq sahələrdə batıb gedir...”

Yağış yağdığı üçün sahələrdə iş dayanıb. Nə önlüklü pambıqyığan qadınlar, nə də kombaynlar var. Fermerlər isə deyirlər ki, onsuz da günəşli günlərdə də iş getmirdi. Səbəb pulsuzluqdur. Fermerlərin pambığı sahədən toplamaq üçün vəsaiti yoxdur. Onların illər boyu müqavilə bağladığı “CTZ- Aqro” MMC bu il müqavilə şərtlərini birtərəfli pozaraq fermerlərə vəsait ödəyə bilməyib. Səbəb Beynəlxalq Bank qalmaqalına qədər gedib çıxır. Belə ki, əsas təsisçi olan Cahangir Hacıyev bankdan uzaqlaşdırılandan sonra fermerlərin işləri dalana dirənib. MMC onlara məsləhət görüb ki, banklardan kredit götürərək pambıq əkininə başlasınlar, bir qədər sonra pulları və kreditləri ödəniləcək. Ancaq iş məhsul yığımına qədər gəlib çatıb və son nəticədə pambıq tarlalarda batır...

### “İndiyədək pambığın 80 faizi yığılmalı idi, ancaq 10 faiz yığmışıq”

“Pambığın 80 faizi hələ sahələrdədir, yığılmayıb. Artıq yağışlar da başlayıb. Yığmağa vəsait yoxdur. Yığanlar pulla yığır. Nə maşınla, nə əllə yığdırmağa pulumuz yoxdur”,- söhbətləşdiyimiz sahibkarlar eyni sözləri təkrar edirlər: “Əllə yığanlar kasıb kəndçilərdir, onların da pulu vaxtında verilmədiyindən, məhsul qalıb ortalıqda”.

**Pambıq təhvil verilən Nizami kənd məntəqəsində keyfiyyətə baxan Sərxan Səmədov deyir ki, təhvil verilən pambıq çox azdır:** “Əvvəlki illər bu vaxta qədər demək olar ki, işlər yekunlaşırdı. İndi pambıq qalıb sahələrdə”. Onun sözlərinə görə, hər həftə söz verirlər ki, pulu verəcəklər: “İndi də bu həftəyə deyiblər, camaat gözləyir”.

**Məntəqənin digər əməkdaşı Kamran Qasımov da problemlərin ciddiliyini vurğulayır:** “Əllə yığım üçün qadınlara pul vermək lazımdır ki, məhsul yığılsın, batmasın. Ancaq fermerlərdə pul yoxdur. Buraya qəbul etdiyimiz pambığı da hələ təhvil verməmişik. Zavod işə düşüb, yavaş-yavaş alırlar pambığı, görək nə olur”...

### “Ziyana düşməyimizdə maraqlılar var”

**Fermer Taleh Səmədov isə deyir ki, ilk dəfədir pambıq əkir:** “Üç hektar əkdim, indi iki tondan artıq pambıq gətirib təhvil verimişəm, pulunu ala bilmirəm. Bu il deyilənə görə, məhsuldarlıq da olmuşdu. Yığanlar qohumlarım idi, hamısına borclu qalmışam. Zəhmət çəkir, yeyib-içməyi, gedib-gəlməyi var. İndi də gəlmişəm məntəqəyə, pulumu gözləyirəm”.

**Fermer Əfras Əsgərov isə bildirir ki, 110 hektar pambıq əksə də, hələ yığıma başlamayıb:** “Çünki bütün prosesi borcla, kreditlə həll etmişəm, yığıma pul qalmayıb. Hələ bir kilo pambıq dərməmişəm. Bir neçə günə başlayarıq, pulu gözləyirik. Deyilənə görə, bu həftə verəcəklər. Hər gün gözləyirik. Ziyana düşməyimizdə maraqlılar var”.

**Digər sahibkar isə deyir ki, əllə məhsul yığan qadınların pulunu verib, digər borcları isə qalıb:** “Ümid edirik ki, vəziyyət düzələcək. Amma istənilən halda, ziyandayıq”.

### “KTN problemlərimizi seyr edir”

**Sahibkarlar Kənd Təsərrüfatı Nazirliyini hadisələrə seyrçi qalmaqda günahlandırırlar. Onların sözlərinə görə, nazirliyin bugünlərdə ortaya atdığı “MKT İstehsalat Kommersiya” MMC-nin məqsədi fermerlərə yardım etmək deyil:** “Həmin MMC pambığı çox ucuz, 38 qəpikdən alır. Bu, pambığın maya dəyəri etmir heç. Qiymət bizi qane etmir. Nazirlik bunu qəsdən edir. Məqsəd pambıqçılığı sıradan çıxarmaqdır. Burada qiymət 41 qəpikdir”.

**Fermer Xasay Məmmədov da qeyd edir ki, bir həftədir pambığı dərib gətirib, ancaq pulunu ala bilmir:** “Heç dərdiyimiz pambığın pulunu ala bilmirik. ”CTZ- Aqro" ilə müqaviləm var, ona görə məhsulu bura gətirmişəm. O nazirliyin dediyi “MKT” bizi adam yerinə qoymur. Pambığı dəyər-dəyməzinə istəyir".

**Fermerlər bildirirlər ki, dövlət başçısının kreditlərlə bağlı fərmanı, tapşırığı olub. Ancaq on beş gün vaxt verilən həmin tapşırığın icrası hələ də mümkün olmayıb:** “Artıq pambıq batır, hələ səlahiyyətlilər, rəsmi qurumlar fikirləşirlər. Nazir Heydər Əsədovun bu məsələlərdən birbaşa xəbəri var, ancaq problemin həllinə yardım etmədi. Yaxud Cahangir Hacıyevin üç milyon manat pulu yoxdurmu? Bütün məhsulu yığmaq üçün bu qədər vəsait lazımdır. O istəsə öz cibindən 30 milyon da verər. Amma nazirlə bankir pambıqçılığın da, fermerlərin də axırına çıxdılar”.

### “Niyə biz pambığı ancaq xammal kimi xaricə satmalıyıq?”

**Söhbətləşdiyimiz bütün fermerlər ümid istər kimi bizdən soruşurlar: “Bu işlərin axırı necə olacaq? Pul ayıracaqlar? Yağışlar başlayıb artıq, gec deyilmi?”**

**“CTZ- Aqro”nun işçiləri də aylarla maaşsız işləyirlər. Traktorçu Azər Əliyev deyir ki, üç aydır maaş almır:** “İşlədiyimə uyğun, ayda 300 manata yaxın maaş almalıyam. Üç aydır bir qəpik yoxdur. Gözləyirik”.

**“CTZ- Aqro”nun adının çəkilməsini istəməyən əməkdaşı isə bildirir ki, indi ortaya çıxıb pambıq almağa çalışan MMC fermerləri daha da ziyana salmaqda maraqlıdır:** “Fermerlər onlara pambıq vermirlər, baxmayaraq ki, pambıq tarlada batır. Çünki onlar kilosuna 38 qəpik qiymət qoyublar. Halbuki biz 41 qəpikdən veririk. Pambıq bizə 47-50 qəpiyə başa gəlir. Çünki il boyu MMC-də personalın, texnikanın saxlanma xərci var. Ancaq o ”MKT" müqaviləsi olmayanlara 38 qəpik təklif edir. Bu, ədalətsizlikdir. “MKT” isə müqaviləsi olanlara 41 qəpikdən ödəyir. Belə baxanda, müqaviləsi olmayanlara daha baha ödəməlidir, çünki əvvəlcədən ödəmə etməyib, xərc çəkməyib. Əksinə, fermer məhsulu özü yetişdirib. Bu MMC-nin etdikləri ədalətli deyil. Fermer, ailəsi, özü yayın günündə, 50 dərəcə istidə pambıq becərir, axırı da belə... Onun çörəyini, əməyini yemək olarmı? Onu Allah götürməz. Guya olanları kənd təsərrüfatı naziri bilmir? Qəsdən edirlər bunları..."

**“CTZ- Aqro”nun təmsilçiləri qeyd edirlər ki, əvvəlki illərdə bu vaxta qədər məhsulun 80 faizi yığılmış olurdu, indi isə ancaq 10 faizi yığılıb:** “On faiz pambıqçılığın məhvi, fermerlərin iflası deməkdir. Pambıqçılığın axırına çıxdılar, mübaliğəsiz-filansız, bu sahə məhv oldu. Vaxt keçir. Bu gündən sonra yığım olsa belə, gecdir, çox gecdir. İndi yığım başlasa, dekabr, yanvar aylarına qədər davam edəcək. Yağışlara düşəcək və məhv olacaq məhsul. Reallıq budur ki, bu il fermerlər külli miqdarda ziyana düşdülər, məhsul tarlada batdı, rəsmilərin məsuliyyətsizliyindən batdı, zay oldu məhsul...”

“Keçən il bu məntəqədə oktyabrın əvvəlinə 18 sentner pambıq tədarük etmişdik, indi cəmi 3 sentner təhvil verilib. Özünüz müqayisə edin” deyə, məntəqədən bildirirlər.

**Fermerlər isə gecikmənin onsuz da olduğunu və ziyana düşdüklərini bilirlər. “Amma heç olmasa, bacardığımız qədər yığaq. Ziyanı azaldaq. Biz pulumuzu gözləyirik ki, yığım edək” deyə, onlar vurğulayırlar. “Aran rayonlarına baxan yoxdur. Aran rayonları haqqında dövlət heç bir proqram qəbul etmir. Biz neyləyək? Bəxtimizə yazılıb da burada yaşayırıq. Köçək gedək Bakıya?” deyə, onlar sual edirlər. Və təkliflər də var:** “Dövlət, hökumət istəsə, yüngül sənayeni inkişaf etdirə bilər. Buralarda fabriklər açılar. Niyə biz pambığı ancaq xammal kimi xaricə satmalıyıq? Olmazmı ki, ip, parça sataq? Daha çox iş yerləri açılar, daha çox vətəndaş işləyib çörəkpulu qazanar, əyirici fabriklər olar... İstəyirik ki, dövlət səviyyəsində qərarlar qəbul olunsun”.

**Pambıqçılıqla məşğul olan fermerlər taxılçılıqla bağlı da bədbin proqnoz verirlər:** “Neçə fermer var ki, bu il əkəcəkləri taxılı azaldacaqlar. Məsələn, bir dostum hər il yüz hektar taxıl əkirdi. İndi gəlib deyir ki, cəmi 20 hektar əkəcək. Çünki deyir ki, əlimdə olan 30 min dolları torpağa yönəltsəm, yayda dollar bahalaşa bilər, ola bilsin ki, 1,50 manata qədər qalxsın və mən qoyduğum pulu yığa bilməyim. Ona görə riskə getmirəm deyir. Onun kimi onlarla fermer var ki, risk etməkdən qorxurlar. Gözlənilən budur ki, bu il taxılla bağlı da problem olacaq...”

❑ **Röya RƏFİYEVA**
**Fotolar müəllifindir.**













YENİ MÜSAVAT
N 221 (6249) 7 oktyabr 2015

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# Türkiyə-Azərbaycan hərbi ittifaqı - ədalətli sülhün vazkeçilməz qarantı

## Qardaş ölkə Baş Qərargah rəisinin Bakı səfəri ikitərəfli əməkdaşlığın uğurlu davamının nümayişi və məkrli dairələrə növbəti mesajdır; **ordu generalı Hulusi Akar:** “Ankara Azərbaycanın ərazi bütövlüyünə qarşı ikili standartlara dözməyəcək”; işğalçı Ermənistanın artan narahatlığı boşuna deyil...



**Dağlıq Qarabağ məsələsinin həllində Türkiyə amili heç şübhəsiz, təxminən Rusiya faktoru qədər önəm daşıyır. Əgər Rusiya ilk növbədə işğalçı ölkənin mövcudluq qarantıdırsa, NATO üzvü olan qardaş ölkə Azərbaycanın əsas və təbii müttəfiqi, Qarabağ danışıqlarında Bakının gücünə güc qatan, mövqeyini gücləndirən əsas amildir.**
**Sevindiricidir ki, son illər Türkiyə ilə Azərbaycan arasında hərbi və hərbi-texniki sahələrdə də əməkdaşlıq yüksələn xətlə davam edib və edir.**

Bunun ən bariz nümunələri kimi iki ölkə ərazisində intensivləşən hərbi təlimlər, habelə yüksək çinli hərbçi və generalların qarşılıqlı səfərləridir.

Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Hulusi Akarın rəhbərlik etdiyi nümayəndə heyətinin oktyabrın 5-də başlayan və iki gün çəkən səfəri sözsüz ki, bu qəbildəndir. Gözlənildiyi kimi, ordu generalı və başçılıq etdiyi nümayəndə heyətini Azərbaycan prezidenti İlham Əliyev qəbul edib. Ali qonaq həmçinin Müdafiə Nazirliyində olub, nazir Zakir Həsənovla bir araya gəlib.

Dövlət başçısı Azərbaycan-Türkiyə əməkdaşlığının bütün sahələrdə olduğu kimi, hərbi sahədə də uğurla inkişaf etdiyini və daim möhkəmləndiyini deyib. Hərbi sahədə əlaqələrimizin çox yaxşı tarixə malik olduğunu bildirən İlham Əliyev ölkəmizin müstəqilliyi dövründə ikitərəfli əməkdaşlığın daha da genişləndiyini vurğulayaraq son illər həm Azərbaycanda, həm də Türkiyədə keçirilən birgə hərbi təlimlərin əhəmiyyətini qeyd edib.

Azərbaycanla Türkiyənin dünya miqyasında ən yaxın dövlətlər olduğunu vurğulayan İlham Əliyev ölkələrimizin bir-birini bütün məsələlərdə daim dəstəkləməsinin önəmini qeyd edib. O, Hulusi Akarın başçılıq etdiyi nümayəndə heyətinin səfəri zamanı əməkdaşlığımızın genişləndirilməsi ilə bağlı məsələlər ətrafında səmərəli fikir mübadiləsi aparılacağına əminliyini ifadə edib.

Öz növbəsində Hulusi Akar qardaşlıq təməli üzərində həyata keçirilən birgə təlimlərin böyük əhəmiyyət daşıdığını qeyd edib, istər Türkiyədə, istərsə də Azərbaycanda keçirilən təlimlər zamanı müxtəlif sahələr üzrə nümunəvi iş birliyinə nail olunduğunu vurğulayıb. Ölkələrimiz arasında ikitərəfli münasibətlərə toxunan Hulusi Akar Türkiyə ilə Azərbaycan arasında əlaqələrin dünyada misli olmadığını və böyük önəm daşıdığını deyib. O, Türkiyə və Azərbaycan prezidentlərinin rəhbərliyi ilə əlaqələrin qarşıdakı illərdə daha da genişləndiriləcəyini əminliklə qeyd edib.

**Qarabağ probleminin həllində Azərbaycanın ədalətsizliklə üzləşməsinə toxunan ordu generalı bəyan edib ki, Türkiyə Azərbaycanın ərazi bütövlüyünə qarşı ikili standartları qəbul etmir:** “Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə tam hörmət çərçivəsində və beynəlxalq hüquqa uyğun şəkildə nizamlanması üçün Türkiyənin dəstəyi davam edəcək. Türkiyə beynəlxalq ictimaiyyətin Ukrayna problemində göstərdiyi həssaslığı Dağlıq Qarabağ münaqişəsində də göstərməsini gözləyir”.

**H.Akar ardınca qeyd edib ki, Avropa İnsan Hüquqları Məhkəməsinin (AİHM) (“Çıraqov və digərlərinin Ermənistana qarşı” işi) 2015-ci ilin iyun ayında çıxarmış olduğu qərar Azərbaycanın mövqeyinin haqlı olduğunu bir daha göstərib və önəmli dönüş nöqtəsi olub:** “AİHM həm Ermənistanın haqsız mövqeyini təsbit etdi, həm də bu ölkənin münaqişədə əsas məsuliyyət daşıdığını ilk dəfə hüquqi baxımdan sübut etdi”.

*****

Türkiyənin ordu generalı Bakıda ikən iki qardaş ölkə arasında hərbi əlaqələrin səviyyəsinə dəlalət edən maraqlı bir məlumat da yayılıb. Məlumata görə, Azərbaycan Türkiyə ilə milyardlarla dollarlıq silah sövdələşməsinə imza atıb. Virtualaz.org saytı airnewstimes.com-a istinadən xəbər verib ki, Türkiyənin TAİ şirkətindən 60 “T-129 ATAK” döyüş vertolyotunun alınmasına dair razılıq əldə edib. Sövdələşmənin ümumi dəyəri 3 milyard dollardır.

“T-129 ATAK” döyüş vertolyotları İtaliyanın “Agusta Westland” şirkəti ilə birgə istehsal olunur. O, “A-129 Mangusta” döyüş vertolyotlarının prototipidir. Vertolyotların Türkiyədə yerli şərtlərə uyğunlaşdırılmış versiyasının birgə istehsalına dair razılaşma 2007-ci ildə əldə olunub.

Vertolyotlar Türkiyənin TUSAŞ (Türkiyənin Aviasiya və Kosmik Sənaye şirkəti-TAİ) və ASELSAN şirkətləri ilə İtaliyanın “Agusta Westland” şirkəti ilə birgə istehsal olunmaqdadır. İlk sınaq uçuşlarını 2011-ci ildə keçirib. Vertolyotların hissələrindən təxminən 6200-i Türkiyədə hazırlanır. O cümlədən döyüş maşınlarının elektron sistemlərini ASELSAN təmin edir.

“T-129 ATAK” vertolyotları iki pilotludur. Qanadlarının altında Türkiyənin “Roketsan” şirkətinin istehsalı olan 76 “hava-yer” tipli raket daşıyır. Əlavə yanacaq götürmədən 556 km məsafə uça bilir. Kreyser sürəti saatda 288 kilometrdir. Vertolyotun silahlanmasına burun hissəsində yerləşdirilmiş 20 mm-lik avtomatik top da daxildir. Vertolyotun seriya istehsalına ötən il başlanılıb və 2018-ci ilə qədər Türkiyə Silahlı Qüvvələrinə 50 belə vertolyot təhvil verilməlidir.



Hulusi Akar

“T-129 ATAK” vertolyotlarına maraq göstərən ilk xarici ölkə Azərbaycan olub. 2013-cü ildə əldə edilmiş anlaşmaya görə, TAİ 3 milyard dollarlıq 60 ədəd ATAK vertolyotu ixrac edəcək. Lakin sövdələşmənin detalları, vertolyotların nə zaman təhvil veriləcəyi haqda məlumat yoxdur. Hələlik bu vertolyotların Azərbaycan ordusunun silahlanmasına daxil olması barədə məlumat yoxdur. Bildirilir ki, Azərbaycandan başqa Birləşmiş Ərəb Əmirlikləri, Malayziya, Pakistan və İordaniya da TAİ-dən bu vertolyotların alınmasına dair danışıqlar aparır.

Qeyd edək ki, Azərbaycanın öhdəsindəki döyüş vertolyotları Rusiya istehsalıdır, Mi-8, Mi-24, Mi-35 tiplidir. Azərbaycan bu yaxınlarda Rusiyadan Mi-35M vertolyotlarının böyük partiyasını alaraq öz hərbi-hava qüvvələrinin imkanlarını xeyli gücləndirib. İndi Türkiyədən 60 “T-129 ATAK” vertolyotlarının alınmasına dair sövdələşmə şübhəsiz ki, Azərbaycanın işğalçı Ermənistan üzərində əzici hərbi üstünlüyünü daha da möhkəmləndirməklə yanaşı, onu regionun ən güclü hava qüvvələrinə malik ölkələrindən birinə çevirəcək.

*****

Şübhəsiz ki, işğalçı ölkəni indi Azərbaycan-Türkiyə birgə hərbi təlimləri ilə yanaşı, hərbi-texniki sahədə genişlənən əməkdaşlıq da ciddi narahat edir, bərk qorxudur. Maraqlıdır ki, düşmən tərəfin hərbi rəhbərliyi cəbhə xəttindəki son böyük itkilərdən sonra (4 ölü, onlarla yaralı) iddia etmişdi ki, Azərbaycan ermənilərə qarşı Türkiyə istehsalı olan silah-sursatdan istifadə edir.

Təcavüzkar qonşumuzun narahatlığı, qorxusu əslində boşuna deyil, eyni zamanda Azərbaycanın xeyrinə işləyir. Çünki əraziləri işğal altında olan bir ölkə istənilən yolla öz hərbi gücünü artırmaq haqqına sahibdir...

## Amerikalı analitik: “Ukrayna və Suriya böhranları Qarabağa dair sülh əldə edilməsi ehtimalını azaldır...”



Tomas de Vaal

Bu arada Vaşinqtondakı “Kornegi” fondunun analitiki **Tomas de Vaal** erməni portalına müsahibəsində təmas xəttində gərginliyin artmasında erməni tərəfinin də məsuliyyət daşıdığını bildirib. Qarabağ probleminin həllinin uzanma səbəblərindən danışan analitik məsələyə xarici amillərin təsirinə də toxunub və ilk növbədə Qərblə Rusiya arasındakı Ukrayna münaqişəsini qeyd edib.

**Sitat:** “Ukraynadakı müharibə Qarabağa dair sülh əldə edilməsi ehtimalını azaldıb. Minsk Qrupu həmsədrləri də indi ”minimum-proqram"la - təmas xəttində atəşkəsin qorunması və prezidentlərin görüşünü təşkil etməyə çalışmaqla məşğuldur. Ancaq bu gün çox az adam Qarabağ probleminin real həllinə inanır".

**Xarici amillər sırasında Suriya böhranının rolundan danışan de Vaal bildirib ki, Suriya ilə bağlı Rusiya ilə Qərb arasında bəzi ümumi məqsədlər olsa da, istənilən halda Dağlıq Qarabağ məsələsində çoxsaylı fikir ayrılıqları olacaq:** “Məsələn, konkret hansı ölkənin Qarabağda sülhməramlı missiyanı həyata keçirməsi məsələsində”.

**Ekspert həmçinin narahatlıq ifadə edib ki, konflikt zonasında situasiya yaxşılaşmaq əvəzinə daha da pisləşə bilər.** “Heç kim Qarabağ məsələsinə yetərincə diqqət ayırmır. Və hökmən təmas xəttində nəsə pis bir şey baş verməlidir ki, Vaşinqton və Paris əmin olsun ki, Moskva ilə əməkdaşlıq eləmək və diplomatik səyləri artırmaq lazımdır” - əlavə edib Tomas de Vaal.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 221 (6249) 7 oktyabr 2015

**Yol polisi Bakıda rayon qeydiyyatı ilə nəqliyyat vasitəsi idarə edən sürücülərə qarşı tədbirlərə başlayıb. Oktyabrın 1-dən qüvvəyə minən qadağaya uyğun olaraq rayon qeydiyyat nişanlı maşınlar səhər 7-dən axşam 9-a qədər Bakı şəhərinin ərazisinə buraxılmır. Yol polisi Bakıda anadan olmuş şəxslərə də güzəşt etmir və avtomobil əgər paytaxt qeydiyyatında deyilsə, həmin nəqliyyat vasitəsinin şəhərdən çıxarılmasını tələb edir. Sürücülər isə Bakıda yaşadıqlarını, burada qeydiyyatda olduqlarını əsas gətirərək bu tələblə razılaşmırlar.**

# YPX rəsmisi “rayon maşınları”nın Bakıya buraxılmamasından danışdı

## Kamran Əliyev: “Rayon qeydiyyatında olan avtomobillərin etibarnamə ilə idarə edilməsi artıq mümkün olmayacaq”



**Baş, Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Kamran Əliyev** qadağa və yaranan narazılıqlarla bağlı “Yeni Müsavat”a açıqlama verib. Şöbə rəisi deyib ki, hazırda həyata keçirilən tədbirlərdən razılıq edənlərin sayı narazılardan dəfələrlə çoxdur: “Bakıda avtomobil idarə edən şəxslər nəqliyyat vasitələrini mütləq öz adlarına sənədləşdirməlidirlər. Yəni Bakı sakininin rayon qeydiyyatında olan nəqliyyat vasitəsini etibarnamə əsasında idarə etməsi artıq mümkün olmayacaq”.

**K.Əliyev bildirib ki, Bakıya kənd təsərrüfatı malları daşıyan maşınlar işlərini məhdudiyyət tətbiq olunan saatlara qədər yekunlaşdırmalıdırlar:** “Məhdudiyyət bazarlara yüklərin gətirilməsinə qarşı atılan addım deyil, paytaxtda nəqliyyat sıxlığının azaldılmasına hesablanıb. Bakıda 5 tona qədər olan Bakı qeydiyyatlı maşınlara paytaxt ərazisində hərəkətə heç bir məhdudiyyət qoyulmur”.

**K.Əliyev eyni tonnajlı, lakin rayon qeydiyyat nişanlı maşınlara və digər nəqliyyat vasitələrinə səhər 7-dən axşam 9-a qədər Bakı şəhərinin ərazisinə girişin qadağan edildiyini söylədi.**

**“Qadağa saatlarından əvvəl, məsələn, səhər 6-da Bakı şəhərinin ərazisinə daxil olan rayon qeydiyyat nişanlı nəqliyyat vasitələri qadağa saatlarında paytaxt ərazisində hərəkət edə bilərmi” sualına müsahibimiz belə cavab verdi:** “Rayon qeydiyyat nişanlı nəqliyyat vasitələri qadağa saatlarında paytaxt ərazisində hərəkət edə bilməzlər. Belə nəqliyyat vasitələrinin sürücüləri işlərini elə qurmalıdırlar ki, qadağa saatlarına qədər Bakı şəhəri ərazisində işlərini görüb paytaxtı tərk etsinlər. Və ya gəldikləri ünvanların qarşısında nəqliyyat vasitələrini qoyub digər nəqliyyat vasitələrindən - avtobus, metro, taksidən istifadə etməlidirlər”.

**Bəs rayon qeydiyyatında olan, lakin iş yeri Bakı şəhərinin ərazisində yerləşən, ayda 2-3 dəfə qeydiyyatda olduğu rayona gedən vətəndaşların aqibəti necə olacaq? Onlara da Bakı ərazisində şəxsi nəqliyyat vasitələrindən istifadəyə icazə veriləcəkmi?**

**DYP rəsmisi:** “Rayon qeydiyyatında olan şəxsin nəqliyyat vasitəsi də sözsüz ki, rayon qeydiyyatında olacaq. Rayon maşınlarının şəhərə girişinə məhdudiyyət belə nəqliyyat vasitələrinə də tətbiq olunur”.

**“Bakı qeydiyyatında olan şəxslər rayon qeydiyyatlı maşınlarını paytaxt ərazisində idarə edə bilərmi” sualına gəlincə, DYP rəsmisi dedi ki, vətəndaş maşını etibarnamə ilə almamalıdır:** “Avtomobili öz adına keçirməlidir. Belədə avtomobil Bakı şəhərində olan nəqliyyat vasitəsi kimi qeydiyyatda olacaq. Maşın kimə məxsusdursa, onu öz adına rəsmiləşdirməlidir. Bakı sakininin rayon qeydiyyatı ilə avtomobil idarə etməsi artıq mümkün olmayacaq. Sürücü maşını öz adına keçirdikdə, həm də yeni nömrə almış olacaq və problem birdəfəlik həll ediləcək. Belə hallara tez-tez rast gəlinir”.

**Görəsən, Bakıya rayon qeydiyyat nişanlı avtomobillərin girişinin qadağası tətbiq olunandan sonra hesablanıb ki, gün ərzində paytaxta nə qədər nəqliyyat vasitəsinin girişinin qarşısı alınır? K.Əliyev dedi ki, bununla bağlı konkret rəqəm yoxdur:** “Amma şəhərin nəqliyyat sistemindəki yüklənmənin nə qədər azaldığını hər kəs görür. Yəni dünyanın bir çox ölkələrində belə qadağalar var. Bu gün şəhər daxilində nəqliyyat sıxlığının azalması nəzərəçarpacaq dərəcədə hiss olunur”.

**DYP rəsmisi dedi ki, paytaxtdakı xəstəxanalara gələn, salonunda ahıl yaşda şəxslər olan rayon qeydiyyatlı maşınlara müəyyən istisnalar var:** “Əgər rayon qeydiyyatlı nəqliyyat vasitəsinin salonunda Bakıdakı tibb ocaqlarına göndərişi, tibbi sənədləri olan şəxslər varsa, bu halda istisnalar da mövcuddur. Yəni bu məsələlər nəzərə alınır. Belə avtomobillərə güzəşt olunur.

Bu güzəştlər haqda paytaxt ərazisində xidmət aparan Yol Patrul Xidmətlərinin əməkdaşları, Bakının girişindəki postlarda xidmət aparan YPX işçilərinə müvafiq tapşırıqlar verilib. Rayon qeydiyyatlı maşınların içində xəstələr varsa, belə nəqliyyat vasitələri istisnasız paytaxt ərazisinə buraxılacaq".

❑ **E.MƏMMƏDƏLİYEV**



# Jurnalist iki oğlunun ölümündən danışdı

## Vasif Turan: “Tam əminliklə deyirəm ki, evimi qəsdən yandırıblar”

**Tanınmış jurnalist, BTV onlayn telekanalının və bolgexeber.com saytının rəhbəri Vasif Turanın övladlarının faciəvi şəkildə dünyalarını dəyişməsindən 4 il keçir. Söhbət 4 il əvvəl, 2011-ci ilin 7 oktyabrında Qobu qəsəbəsində baş verən dəhşətli yanğın hadisəsindən gedir. O yanğın ki, 9 yaşlı Rüfətlə 11 yaşlı Əhməd yanaraq, tələf olmuşdu.**

Xatırladaq ki, həmin dəhşətli hadisə zamanı Vasif Turanın Qobudakı evində qəfil yanğın hadisəsi baş verib. Vasif Turan olayı belə xatırlayır: “Həyat yoldaşımla birlikdə qayınanamgilə getmişdik. Evlərimiz arasında məsafə də elə uzaq deyildi. Rayondan bizə sovqat göndərmişdilər. Onu almaq üçün getmişdik. Heç 10 dəqiqə deyildi ki, qayınanamgilə çatmışdıq ki, xəbər gəldi evimiz yanır. Təcili geri döndük, uşaqlar evdə idi. Onları yatırdıb çıxmışdıq. Bizim geri dönüşümüz də ən çoxu 5 dəqiqə çəkərdi. Evə yetişəndə gözlərimə inanmadım. Çünki qısa müddətdə evin bu qədər sürətlə yanması mümkün deyildi. Uşaqları çıxarmağa çalışdıq. Dəfələrlə evə girmək istədim. Əllərim, qollarım yandı. Amma...”

**Baş redaktor deyib ki, Rüfətlə Əhməd çox da kiçik deyildilər ki, yanğın baş verdiyi halda evdən çıxa bilməsinlər. Üstəlik, Əhməd taekvando ilə məşğul olurmuş və onun pəncərədən aşaraq evdən çıxa bilməsi mümkünsüz görünür:** “Evin qısa müddətdə yanması, uşaqların evdən çıxa bilməməsi, evin qapısının arxadan bağlı olması, ondan əvvəl təhdid olunmağım və digər hallar yekunda o qənaətə gəlməyimə səbəb oldu ki, bu mənə və övladlarıma qarşı törədilmiş terrordur. Tam əminliklə deyirəm ki, evimi qəsdən yandırıblar. Bunu istintaq dönəmində də israrla bildirmişəm. Bu gün də həmin qənaətdəyəm”.

**Vasif Turan öz açıqlamasında 4 ildir davam edən istintaqın hələ də nəticə vermədiyini deyib. Bildirib ki, bu müddət ərzində FHN-in İstintaq İdarəsi və Baş Prokurorluq dəhşətli olayı araşdırıblar. Amma hələ də ortada heç nə yoxdur:** “İndiyə qədər dəfələrlə istintaqa çağırılmışam. Övladlarımın ölümü ilə bağlı bütün şübhələrimi, ehtimallarımı, təxminlərimi, mümkün dəlilləri istintaqa təqdim etmişəm. Di gəl, heç bir nəticə əldə etmək mümkün olmayıb. Ümid edirəm ki, istintaq orqanları bu cinayətin üstünü tezliklə açacaqlar. Mənim də bundan sonra ürəyim təskinlik tapar ki, cinayətkarlar yaxalandı və cəzalarını aldı”.

❑ **Cavid TURAN**

# Şef-redaktora qarşı dələduzluq edən şəxsin daha bir əməli ortaya çıxdı

## Təqaüdçü hakim Rauf Fərəcovun dediklərini təkzib edir

**Ötən saylarımızdan birində “Minval.az-ın şef-redaktoruna qarşı dələduzluq araşdırılmamış qalıb” sərlövhəli yazı dərc etmişdik. Yazıda saytın şef-redaktoru Emil Mustafayevin atası Vüqar Mustafayevdən aldatma yolu ilə 50 min manat alan Rauf Əlihüseyn oğlu Fərəcovun uzun illər məhkəmə sistemində çalışmış, qocaman hakim Günəş Xudaverdiyevanın adından istifadə etməsindən söhbət açılırdı. R.Fərəcov V.Mustafayevin oğluna ev almaq istədiyini öyrənərək ona şəhərin mərkəzində tikilmiş binadan mənzil təklif edib. Hissə-hissə ondan 50 min manat alıb.**

Sonradan isə V.Mustafayev evi və ya pulu tələb edəndə R.Fərəcov daha bir aldatmaya baş vurub. Ona deyib ki, həmin pulu aldığına dair ona notariusdan sənəd verəcək. Əslində isə R.Fərəcov V.Mustafayevin hüquqi savadsızlığından istifadə edərək bu sənədi imzalatdırmaqla ondan pulu evə görə deyil, borc kimi alması təəssüratını yaratmağa çalışıb. V.Mustafayevin hüquq-mühafizə orqanlarına müraciətindən sonra isə deyib ki, ümumiyyətlə, ondan pul almayıb. Axtarışa verilib saxlanıldıqdan sonra isə borc müqaviləsini ortaya çıxararaq pulu borc almasını iddia etməyə başlayıb. Bu məsələdə qocaman hakimin adının hallanmasına gəlincə, belə aydın olur ki, bu da R.Fərəcovun növbəti aldatmasıdır.

**Hazırda təqaüddə olan hakim G.Xudaverdiyevanın oğlu Elxan Xudaverdiyev redaksiyamızla əlaqə saxlayaraq R.Fərəcovla heç bir tanışlıqlarının olmadığını söyləyib:** “Mənim anam Azərbaycanın hörmətli hakimlərindən olub. Hazırda təqaüddədir. O, yazı ilə tanış olub və bildirir ki, belə bir adam tanımır. Onun barəsində həmin şəxsin dedikləri yalan və böhtandan başqa bir şey deyil. Bu adam dələduzdur”.

Yada salaq ki, Xətai Rayon Polis İdarəsinin İstintaq Şöbəsində R.Fərəcov barəsində Cinayət Məcəlləsinin 178-ci - dələduzluq maddəsi ilə cinayət işi başlanıb və məhkəməyə istintaq dövründə həbsə alınması üçün vəsatət verilib. Xətai Rayon Məhkəməsinin hakim Fuad Məmmədov vəsatəti təmin etməyib. Rauf Fərəcov məhkəmədən çıxandan sonra V.Mustafayevə qocaman hakim Günəş xanımın onun arxasında dayandığını deməklə 1 gün də olsa həbsdə qalmayacağını diqqətinə çatdırmışdı. Sonradan istintaq orqanı apelyasiya instansiyasına vəsatət verib və Rauf Fərəcovun həbsini tələb edib. Lakin yenə də o, həbs olunmayıb. Hakim Qədim Babayev sədrlik etdiyi proses yekunlaşandan sonra Rauf Fərəcov yenə də V.Mustafayevə yaxınlaşaraq “özünüzü yormayın, Günəş xanım mənim həbs olunmağıma imkan verməyəcək” deyib.

İndi isə belə məlum olur ki, o, bu məsələyə aidiyyəti olmayan şəxslərin, qocaman hakimin adını qatmaqla məsuliyyətdən kənar qalmaq istəyir.

❑ **E.MƏMMƏDƏLİYEV**



# Küçə zibilləyənlərə cərimə zərbəsi vurulmasa...

## Paytaxtımızın dünya meqapolisləri ilə bir sırada durması üçün pintiliklərdən imtina edilməlidir

**ABŞ-ın, Avropanın şəhərlərinə gedib-gələn həmvətənlərimiz küçələrdəki təmizlikdən danışmağı sevirlər: bir siqaret kötüyünə rast gəlmək mümkün deyil, havada uçuşan sellofan torba görmək olmaz, insanlar hər cür zibilləri zibilqabına atırlar, parklarda oturub tum çırtlamır, qabığını hara gəldi, tökmürlər və s.**







Bu söhbətləri dinlədikdən sonra şəhərimizin küçələrinə çıxanda Avropa ilə aramızda nə qədər böyük fərq olduğunu aydın görmək olar. Küçələr boş siqaret qutuları və kötükləri, kağız parçaları, şirniyyat kağızları, içki şüşələri ilə doludur. Yollarda hər cür zir-zibilə rast gəlmək olar. İnsanlar əllərində olan hər şeyi yerə atırlar. Hətta zibilqabıların olduğu yerlərdə də vəzyyət dəyişmir. Hər səhər yaşlı xadimələr yolları süpürüb-təmizləyir, günün ilk yarısı təmizlik nisbətən bərpa olunur, lakin cəmi bir neçə saatdan sonra dərsə, işə tələsən insanlar küçələri köhnə, zibilli vəziyyətinə qaytarırlar.

Həm də bunu o adamlar edir ki, onlar evlərində, həyətlərində səliqə-sahman, təmiz şərait yaradıblar. Belə çıxır ki, biz evdə təmizkar, çöldə pintiyik.

Bəs bu xasiyyətimizin islah olunması üçün hansı addımlar atılmalı, hansı qərarlar qəbul edilməlidir? Bu problemi cərimə sanksiyaları tətbiq etməklə çözmək olarmı?

**Məsələ ilə bağlı müsavat.com-a danışan ekspert Vüqar Bayramov bir sıra təkliflər irəli sürür:**

"Ümumiyyətlə, Azərbaycanda hələlik yollara zibilin atılması ilə bağlı yalnız avtomobildən istifadə edən zaman cərimələr müəyyənləşib. Sürücü yerə hər hansı əşya atarsa, cərimələr nəzərdə tutulub. Amma təəssüf ki, yollara zibil atan sakinlərlə bağlı heç bir cərimə nəzərdə tutulmayıb. Qərb ölkələrinin təcrübələrinə nəzər yetirsək, bu ölkələrdə yolları çirkləndirənlər üçün bələdiyyə cərimələri nəzərdə tutulub. Əgər vətəndaş zibili yola atırsa, yolu çirkləndirirsə, bu zaman bələdiyyə vətəndaşa qarşı cərimə tətbiq edir. Cərimənin məbləği qanunvericiliyə uyğun olaraq hesablanır. Təklif edirik ki, Azərbaycanda da bunun qarşısının alınması üçün xüsusi cərimələr müəyyənləşdirilsin. Praktik olaraq həmin küçələri zibilləyənlər birbaşa bələdiyyə büdcəsinə cərimə ödəsin. Bələdiyyələrə hüquq verilsin ki, həmin şəxslərlə bağlı cərimələr tətbiq edə bilsin".

**V.Bayramovun dediyinə görə, inkişaf etmiş ölkələrdə bu hal üç dəfə təkrarlanarsa bələdiyyə prokurorluq orqanlarına müraciət edir:** "Həmin şəxsə cinayət işi açılır. Azərbaycanda da indiki məqamda mütəmadi olaraq küçələri zibilləyənlər barədə cərimələrin tətbiq edilməsi və daha ciddi tədbirlər görülməsi məqsədəuyğundur. Bu halların tətbiqi Bakıda küçəyə atılan zibillərin həcminin kəskin şəkildə azalmasına gətirib çıxaracaq".

**Dünyanın bir çox ölkələrini gəzmiş Vüqar Bayramov həmçinin qeyd etdi ki, ictimai qınaq, məlumatlandırma, maarifləndirmə metodu da faydalı ola bilər:** "Etiraf etmək lazımdır ki, son illər Bakı xeyli dərəcədə təmizdir. Təmizliyin artması etiraf edilməlidir. Azərbaycanı, xüsusilə Bakı şəhərini 10-15 il əvvəllə müqayisə etsək görərik ki, tamamilə fərqli, təmiz Bakı şəhəri var. Amma insanların küçə davranışı Avropa ölkələrində olduğu kimi deyil. Hələ də insanlar siqareti çəkib kötüyünü küçəyə atırlar. Tumu çırtlayıb qabığını yerə tökürlər. Bəzi hallarda hətta binaların pəncərəsindən zibili küçəyə atırlar. Şəhərin mərkəzində də buna rast gəlmək olur. Şəhərin təmizliyi vətəndaşların şəhərə münasibətindən də asılıdır. Bakı sakinlərinin əksər hallarda şəhərin təmizliyinə münasibəti Avropa ölkələri ilə müqayisəyə gəlmir. Bəzi ölkələrdə şəhəri zibilləyənlərin şəkilləri qəzetlərdə çap edilir, xüsusi lövhələrdə vurulur. Yəni ictimai qınaq metodundan istifadə olunur. Bakının təmizliyi üçün də ictimai qınaq, məlumatlandırma, maarifləndirmə metodu vacibdir".

**Musavat.com-un şef-redaktoru Xalid Kazımlı deyir ki, bu pis vərdişin qarşısını yalnız cərimələr tətbiq etməklə almaq olar:** "Bu yay İstanbuldan başqa, Avropanın daha iki şəhərində olmuşam - Milan və Kiyevdə. İstanbul küçələrində təmizlik məsələsi artıq bərbaddır. Qaçqınlar ordusu şəhərin bir çox küçələrini zibilləyib batırırlar. O biri iki şəhərdə də şəhərin küçələrinin təmizliyinə, səliqə-sahmanına xüsusi olaraq fikir vermişəm. Milan klassik Avropa şəhəri olduğu üçün təmiz, səliqə-sahmanlı, yaşıl şəhərdir. Kiyev isə bizə hər mənada daha yaxın olan bir məkandır. Təmizlik xüsusunda Bakı və Kiyev çox fərqlənir. Orada adamlar küçədə gedərkən siqaret çəkmir, kötüyünü hara gəldi tullamırlar, bunu xüsusi ayrılmış yerdə edir, siqaretin qutusunu və kötüyünü isə məhz zibilqabına atırlar. Kiyevdə maşının pəncərəsindən yola, səkiyə müxtəlif zibillər atan da yoxdur. Onlar bu səliqə-sahmanı intizamsız vətəndaşları cərimələyə-cərimələyə yaradıblar. Məsələn, bizim səfər yoldaşlarımızdan biri aeroportun binasından çıxan kimi siqaret yandırmaq istədi, dərhal ona yaxınlaşdılar və cərimələmək istədilər, yalnız Azərbaycandan olduğumuza görə güzəşt edərək, siqaret çəkilməsi üçün ayrılmış yeri göstərdilər. Bakıda isə vəziyyət tam əksinədir. Burada çayxanalarda, kafelərdə, əksər ictimai yerlərdə siqaret tüstüsünün buludlarını görərsən. Hətta stadionlarda, şadlıq saraylarının içində belə siqaret çəkirlər və hər kəs zibili istədiyi yerə atır. Bunun qarşısını yalnız cərimə sanksiyaları ilə almaq olar. İnsanları səliqəli olmağa, pinti olmamağa məcbur etmək lazımdır. Yoxsa bizim bu vərdişimiz yüz il gedər".

















**X.Kazımlı deyir ki, cərimələrin effektivliyinə dair presedent də var:** "Unutmayaq ki, başqa vaxt yol hərəkəti qaydalarına riayət etməyən sürücülərimiz Bakıda keçirilən I Avropa Oyunları zamanı 1-2 gün müqavimət göstərdikdən sonra qoyulan tələblərə asanca tabe oldular, hətta oyunlardan sonra bir neçə həftə ərzində də "sarı xətti" keçmədilər. Çünki qayda pozmaq artıq onlara sərf etmirdi, ciblərinə zərbə dəyirdi".

Qeyd edək ki, qardaş Türkiyədə yerə zibil atmağın cəzası 31 lirədir *(təxminən 10 manat)*. Avropa ölkələrində isə yeri zibilləyən şəxsi azı 800 avro *(təxminən 941 manat)* cərimə gözləyir. Yəni bir çox avropalılar həddən artıq mədəni olduqları üçün deyil, cərimələnməmək, pul ödəməmək üçün küçələri zibilləmirlər. İllərdir tətbiq olunan bu sanksiya sonucda insanlara mədəni olmaq, pinti olmamaq vərdişləri aşılayıb.

**P.S.** *Ölkəmizdə gündəlik danışıq leksikonunda nəyə görəsə cərimələnməyi "zibilə düşmək" kimi ifadə edənlər çoxdur. Bir gün onlar zibilə görə cərimələnsələr, söz yerini tam alacaq.*

❑ **Gülnar Süleymanova**













# Əhaliyə satılan palma yağı orqanizm üçün təhlükəlidir

## Ekspertlər "Azərbaycana daxil olan qidaların tərkibi müəyyənləşdirilməlidir" deyir

**Azərbaycanda əhaliyə kərə yağı adı ilə palma yağı yedizdirilir. Görünüşünə görə kərə yağından seçilməyən palma və soya yağından həmçinin konservləşdirilmiş südlərdə, dondurmalarda, tortların kremində, şirniyyatların tərkibində də istifadə edilir. Bugünlərdə kənd təsərrüfatı mütəxəssisi Vahid Məhərrəmov sosial şəbəkədə bu haqda bir məlumat qeyd etmişdi: "Ölkəmizə 2013-cü ildə 32 milyon dollar dəyərində 43 min ton palma yağı gətirilib. Bu yağdan kimsə istifadə edibmi? Bəs bu qədər yağ hara gedib? Yəqin ki, kərə yağı, yağlı pendir, qaymaq, bitki yağı, dondurma, yağlı süd, xama kimi istehlak edilib".**

V. Məhərrəmov gətirilən palma yağının hansı məhsulun istehsalında istifadə edildiyinin açıqlanmadığını yazır: "Əlbəttə, bu qədər yağın gətirilməsi şübhə doğurur. Xarici görünüşünə görə kərə yağına çox oxşardır. Bundan başqa, bu yağı pendir, xama, dondurma və digər məhsulların istehsalında yağlılıq dərəcəsini artırmaq üçün istifadə edirlər. Palma yağının 1 kiloqramı təxminən 60-70 qəpik civarındadır. Təsəvvür edin, tərkibinə müxtəlif aromatizatorlar vurularaq kərə yağı kimi satışa çıxarılırsa, görün nə qədər gəlir əldə edirlər. Dövlət Statistika Komitəsinin açıqladığı hesabatda bu yağın Azərbaycana gətirildiyi bildirilir. Ancaq qeyd olunmur ki, hansı məqsədlər üçün istifadə olunub".

Qeyd edək ki, ölkəmizdə əsas diqqət GMO məhsullarına yönəlsə də, son günlər ortaya çıxan bu problem insanları daha çox narahat edir. Birbaşa qida rasionumuza daxil olan kərə yağlarının tərkibində palma, soya yağlarının olması insanları narahat edir.

Baş çəkdiyimiz mağazalarda da kərə yağlarına diqqət etdikdə kilo ilə satılan yağların üzərində tərkibi haqda heç nə görməsək də, satıcılar bu yağları tərifləyir, Yeni Zelandiya və Rusiya istehsalı olan əsl kərə yağları olduğunu bildirirdilər. Tərkibi haqda üzərində niyə bir məlumat olmadığını soruşduqda isə bu suala verəcək bir cavab tapa bilmədilər. Ümumiyyətlə, hər bir yağ üçün müəyyən edilmiş standart var. Kərə yağının tərkibində 80 faiz təmiz kərə yağı olmalıdır. Kimyəvi tərkibdən istifadəyə müəyyən miqdara qədər icazə verilir ki, bu, tərkibdə cüzi miqdarda olur.

Bəs kərə yağı adı ilə insanlara satılan palma yağı nədir?

Malayziyada istehsal edilən bu yağlar çox ucuz olduğu üçün ölkəmizdə marqarin və kərə yağlarının içinə qarışdırılır və bu yolla işbazlar külli miqdarda gəlir əldə edirlər.









Palma yağları bitki mənşəli olmasına baxmayaraq sağlamlığımızı ciddi zərər verir. Çünki onun tərkibində yüksək miqdarda doymuş yağ turşusu var. Palma yağındakı doymuş turşu nisbəti 44,3 faiz təşkil edir. Yağda doymuş turşu nisbətinin yüksək olması isə ağciyər, ürək və damar xəstəliklərinə yol açır. Mütəxəssislər dünyada ümumi yağ istehsalının təxminən yarısını qarşılayan palma yağına olan ehtiyacın 2020-ci ilə qədər 40 milyonu keçəcəyini bildirirlər.

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov kərə yağı sahəsində qeyri-şəffaflıq olduğunu bildirdi:** "Kərə yağlarının tərkibində palma, soya yağları, süd əvəz ediciləri ola bilər. Lakin kərə yağlarının tərkibinə bu cür qarışıqların əlavə edilməsi istehlakçıların aldadılması və istehlakçı hüquqlarının pozulmasıdır. Satışda olan kərə yağlarının fərqli qiymətə təklif edilməsi və onların müxtəlif yağlılıqda, dadda olması insanda şübhə doğurur. Palma yağından qatığın, xamanın və digər süd məhsullarının hazırlanmasında istifadə olunması barədə bizə məlumatlar gəlir. Təəssüf, ekspertiza orqanları illərdir ki, bu mövzularda yatırlar. Çünki bir ekspertiza orqanının verdiyi məlumatı o biri ekspertiza təsdiq edə bilmir. Ekspertizalar dövlət monopoliyasına birləşib. Bütün ekspertizalar və hüquqi sənəd kimi tanınan laboratoriyaların hamısı dövlət monopoliyasındadır. Belə bir vəziyyətdə müstəqil ekspertizanın rəyi, sənədi məhkəmələrdə hüquqi sənəd kimi qəbul edilmir. Bu hal dəfələrlə bizim başımıza gəlib. Nə qədər ki, bu situasiya var, nə qədər ki, müstəqil ekspertizanın rəyi hüququ sənəd kimi tanınmır və nə qədər ki, məmurlar bizneslə məşğul olur, bu kimi problemlər həmişə olacaq. Azərbaycanda kərə yağı az da olsa istehsal edilir, lakin bu 3 faizdən artıq deyil. Bu sahədə qeyri-şəffaflıq hökm sürür. Xarici ölkələrdən gətirilən yağlar da heç də şəffaflıqla hazırlanmır. Vaxtilə mən bizneslə məşğul olmuşam. O zaman bildim ki, xarici ölkələr deyirdi ki, siz bizə qiyməti deyin, biz də o qiymətə uyğun həmin etiketlə mal hazırlayaq. Bu hadisə Türkiyədə baş vermişdi. Məhz buna görə də mən biznesi atdım və istehlakçının hüququnu qorumaq qərarına gəldim".

Qeyd edək ki, bir çox həkimlər bu yağın tərkibində toksik zəhərli maddələrin olduğunu vurğulayırlar. Bu da insan sağlamlığı üçün təhlükəlidir.

**Tibb elmləri doktoru, professor Adil Qeybulla isə həqiqi soya, palma yağının insan səhhəti üçün ciddi zərəri olmadığını dedi:** "Əgər ora doğrudan da soya yağı vurulursa, bu, orqanizm üçün elə də zərərli deyil. Ümumiyyətlə, bütün dünyada ayrı-ayrı millətlərin, xalqların qidalanma tərzi var. Həmin qidalanma tərzinə orqanizm adaptasiya olur. Biz soya yağlarından tarixən istifadə etməmişik. Bu yağların bu gün məişətimizə daxil olması yeni bir qidalanma növüdür. Amma söhbət ondan gedir ki, orada həqiqətən də soya yağı varmı? Soya yağı çox bahalı və qiymətlidir. Bu yağın tərkibində doymamış yağ turşuları orqanizm üçün vacib strukturları qabardır. Hesab edirəm ki, Azərbaycana daxil olan bu qidalar araşdırılmalı və tərkibi müəyyənləşdirilməlidir. Bu ən azı qida təhlükəsizliyi baxımından vacibdir".

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra **Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



### Elan

**Qəbələ rayonu Vəndam kəndində parket fabriki bütün avadanlıqları ilə birlikdə, çox ucuz qiymətə (15000 AZN) təcili satılır.**
**Tel: 070 335 90 15**

**Binəqədi-Xırdalan şossesi yaşayış massivi, Respublika Dövlət Yol Polisinin yaxınlığında əlverişli qiymətə 4 sot torpaq sahəsi satılır. 2,5 metr hündürlükdə daş hasarın içərisində, əla yerdə. İşıq, qaz, su 15 m məsafədə yerləşir. Yenilənmiş kanalizasiya xətti, meyvə ağacları var. Yol asfalt-beton.**
**Tel: (050) 614-40-24**

### Elan

**Buzovna dairəsində, Daxili Qoşunların yanında 7 sot torpaq satılır. Sotu 7500 AZN.**
**Əlaqə telefonu: (050) 343-59-72**


## Bakıda sərnişin avtobus sürücüsünü beşbarmaqla öldürdü



**Bakıda qətl hadisəsi baş verib. Azvision.az xəbər verir ki, 33 saylı marşrut avtobusunun sürücülərindən biri ilə sərnişin arasında insident yaşanıb. Belə ki, dayanacaqdan kənarda saxlamayacağını deyən sürücü əvəzində beşbarmaqdan zərbə alıb.**

Avtobus hərəkətdə olarkən sərnişin dörd dəfə soyuq silahdan sürücünün baş nahiyəsinə zərbə endirib. Nəticədə sürücü xəstəxanalıq olub. Həkimlərin müdaxiləsinə baxmayaraq onun həyatını xilas etmək mümkün olmayıb.

Qətldə şübhəli bilinən şəxs artıq polis tərəfindən saxlanılıb.

## Müəllim toyda oynadığı yerdə öldü



**Beynəlxalq Müəllimlər Günü qeyd olunan ərəfədə müəllim toyda rəqs edən zaman vəfat edib. "Qafqazinfo" xəbər verir ki, dünən Biləsuvar şadlıq sarayında toyda iştirak edən Xanbaba Babayevin vəziyyəti qəflətən pisləşib.**

Rayonun Əsgərabad kəndindən olan 57 yaşlı biologiya müəllimi rəqs etdiyi yerdə ölüb.

## Qadın özünü güllələdi



**Lerik rayonunda dəhşətli intihar hadisəsi baş verib. Lent.az Daxili İşlər Nazirliyinə istinadən xəbər verir ki, oktyabrın 5-də Lerik rayonunun Soru kəndində yaşayan Çinarə Novruzova evdə ov tüfəngindən açdığı atəşlə özünə xəsarət yetirib və xəstəxanaya aparılarkən yolda ölüb.**

Hadisə yerindən "İJ-17" markalı ov tüfəngi götürülüb.

## Bakıda 78 yaşlı kişi özünü asdı



**Bakıda intihar hadisəsi baş verib. Lent.az-ın məlumatına görə, Suraxanı rayon, Qaraçuxur qəsəbə sakini, 1937-ci il təvəllüdlü Musayev Vəli Məmməd oğlu özünü yaşadığı evin həyətində asıb. 78 yaşlı kişinin talvardan asılı vəziyyətdə qalmış meyiti yaxınları tərəfindən aşkarlanıb.**

Faktla bağlı cinayət işi başlanıb, araşdırma aparılır.

YENİ MÜSAVAT
N 221 (6249) 7 oktyabr 2015

# Yağış suları Bakını yudu

## "Azəryolservis"in mətbuat xidmətinin rəhbəri: "Dünyanın istənilən inkişaf etmiş ölkəsində belə hallar ola bilər..."

**Sentyabrın 6-da gecə saatlarında yağan yağış yenidən Bakını gölməçələrə qərq etdi. Yağışın yaratdığı problemlə bağlı sosial şəbəkələrdə də xeyli fotolar yayıldı. Aydın olur ki, Bakının hər il payız, yaz, qış fəslində üzləşdiyi problem, yağan yağışlar zamanı kanalizasiya sisteminin bol su axınına tab gətirməməsi prosesi bu mövsüm də davam edir.**







Halbuki bugünlərdə "Azərsu" ASC-dən mətbuata verilən açıqlamada bildirilirdi ki, analoji halların yaşanmaması üçün yollarda müvafiq tədbirlər görülüb, xeyli sayda barmaqlıqlar təmizlənib, kanalizasiya xətlərində profilaktik təmizlik işləri aparılaraq xüsusi maşınlar vasitəsilə təmizlənib, yağış şəbəkələrinin istismara yararsız olub-olmaması ilə bağlı yoxlamalara aparılıb. Lakin gecə saatlarında yağan güclü yağış paytaxtın kanalizasiya sistemində hələ də problemlərin olduğunu sübut etdi.

Məsələ ilə əlaqədar "Azərsu" ASC-nin mətbuat xidməti ilə əlaqə saxlamağa çalışsaq da cəhdlərimiz boşa çıxdı.

**Yollarda yaranan gölməçələrlə bağlı Nəqliyyat Nazirliyi "Azəryolservis" ASC-nin mətbuat xidmətinin rəhbəri Anar Nəcəfli "Yeni Müsavat"a açıqlama verdi. Onun sözlərinə görə, güclü yağış zamanı qurumun balansında olan avtomobil yolları, küçə və prospektlərində heç bir problem yaşanmayıb:** "Paytaxtda Bakı Şəhər İcra Hakimiyyətinin balansında olan yollar da var. Bizim qurumun balansındakı ərazilərdə problem yaşanmayıb. Əgər hansısa problem olubsa da qurumun əməkdaşları tərəfindən tez bir zamanda aradan qaldırılıb. Gecə saatlarında əməkdaşlarımız yağışın yağması ilə əlaqədar olaraq gücləndirilmiş iş rejimində çalışıblar. Səhər saat 5 radələrində artıq bütün problem aradan qaldırılmışdı. Ümumiyyətlə, bu normal bir haldır. Dünyanın istənilən inkişaf etmiş ölkəsində güclü yağış yağan zaman yolları su basa bilər".

**Anar Nəcəfli bugünlərdə xeyli sayda oğurlanan yağış barmaqlıqlarından da danışdı. Onun sözlərinə görə, səth sularının normal axıdılması üçün nəzərdə tutulan yağış barmaqlıqlarının oğurlanması ciddi problemlərə yol açır:** "Çox təəssüf ki, bugünlərdə yolların kənarında yerləşdirilən, yağış-kanalizasiya sistemlərinə aid quyuların üzərində yerləşdirlən barmaqlıqlar oğurlandı. Onlar ağır poladdan ibarət idi. Çox güman ki, şəxs və ya şəxslər həmin barmaqları maya dəyərindən 3-4 dəfə ucuz qiymətə metal qəbulu məntəqələrinə təhvil verib. İnanırıq ki, hüquq-mühafizə orqanları barmaqlıqları oğurlayan şəxs və ya şəxsləri taparaq məsuliyyətə cəlb edəcək.

Oğurlanan barmaqlıqların yeniləri ilə əvəz edilməsi üçün tapşırıqlar verilib. Yaxın günlərdə yeni barmaqlıqlar qoyulacaq".

**Qurum rəsmisi həmçinin süpürülən zibillərin quyulara tökülməsindən də şikayətləndi:** "Apardığımız araşdırmalardan məlum oldu ki, mənzil-kommunal xidməti sahəsinin bir çox əməkdaşları zibilləri həmin barmaqlıqlara atır. Bunun da nəticəsində barmaqlıqlar zibillə dolur və axan suyu qəbul edə bilmir. Bu da ona gətirib çıxarır ki, güclü yağış yağan kimi yollarda gölməçələr yaranır, problemlər yaşanır. Qurum adından xahiş edirik ki, həmin barmaqlıqlara zibil atılmasın".

**Anar Nəcəfli əlavə elədi ki, 2015-2016-cı illər payız-qış mövsümündə avtomobil yollarının və yol qurğularının normal istismarını, hərəkətin fasiləsizliyini və təhlükəsizliyini təmin etmək üçün Nəqliyyat Nazirliyi "Azəryolservis" Açıq Səhmdar Cəmiyyətində tədbirlər planı hazırlanıb:** "Qurumun mərkəzi aparatında qərargah, sutkalıq növbətçilik sistemi yaradılıb. Oktyabrın 1-dən etibarən 24 saat zəngləri qəbul edən (012) 599-79-75 nömrəli xüsusi telefon xətti, "Qaynar xətt" fəaliyyə başlayıb. Bunun da nəticəsində qurum yollarda baş verən hər hansı bir problem barəsində dərhal xəbərdar olub operativ tədbirlər həyata keçirir".

❑ Xalidə GƏRAY



# Ziya Məmmədovun işçisinin açıqladığı korrupsiya faktları araşdırılmır

## Xırdalan Stansiyasının Yük Kontorunun sabiq rəisi Əliağa Hüseynovun məktubları 10 aydır yollarda "dolaşır"

**Xırdalan Stansiyasının Yük Kontorunun sabiq rəisi Əliağa Hüseynov açıqladığı korrupsiya faktlarının, ona qarşı qanunsuzluqların araşdırılmasını istəyir. Azərbaycan Dəmir Yolları QSC-nin Yük Daşımaları Departamentinin rəhbəri Əşrəf Məmmədəliyevə müraciət edən Ə.Hüseynov rəisini ona qarşı qanunsuzluqlarda suçlayıb. Ə.Hüseynov redaksiyamıza təqdim etdiyi müraciətində yazır:**

"10 aydan çoxdur sizin mənə qarşı tutduğunuz çirkin əməllərinizdən dəfələrlə ölkə başçısına, QSC-nin sədri Cavid Qurbanova, nəqliyyat naziri Ziya Məmmədova, Baş Prokuror Yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinə, ayrı-ayrı nazirliklərə, təşkilatlara müraciətlər etmişəm. Müraciətlərimin məzmunu məcburi şəkildə sizin tapşırığınız əsasında məndən ərizə alınıb işdən çıxarılmağım və Xırdalan stansiyasına 2014-cü ilin noyabr ayında təyin olunmuş rəis Vüsal Eminovun stansiyada sənədləri saxtalaşdırıb külli miqdarda pul mənimsəməsindən ibarət olub. Yazdığım bütün ərizələr baxılıb tədbir görülməsi üçün sizin rəhbərlik etdiyiniz Azərbaycan Dəmir Yolları QSC-nin Yük Daşımaları Departamentinə göndərilir. Orada isə sizin qərəzli göstərişiniz əsasında ərizələrimə baxılmır, baxılan halda isə departamentdən aidiyyəti olmayan adamların imzası ilə mənə cavab məktubu göndərirsiniz ki, sizin eyni məzmunlu ərizənizə 19 mart 2015-ci il tarixdə D-447 saylı məktubla cavab verilmişdir. Əşrəf müəllim, mənə cavab məktubunda nə üçün göstərdiyim faktlar barədə açıqlama vermirsiniz? Müraciətlərim araşdırılan zaman mənə nə üçün stansiya rəisi Vüsal Eminovun törətdiyi saxtakarlıqlar barədə gördüyünüz cəza tədbirindən məlumat vermirsiniz? Baş Prokurorluğa Xırdalan stansiyasında törədilmiş korrupsiya faktları haqda mayın 25-də ərizə ilə müraciət edib saxtalaşdırılmış sənədlərin surətlərini təqdim etmişəm. Baş Prokuror Yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsindən isə həmin sənədləri baxılıb tədbir görülməsi üçün sizin rəhbərlik etdiyiniz Yük Daşımaları Departamentinə göndəriblər. Sizin müavin Nəriman Nağıyev isə şikayət ərizəmi araşdırmadan 10.08.2015-ci il tarixdə məktubla mənə cavab göndərir ki, sizin eyni məzmunlu ərizənizə 19.03.2015-ci il tarixdə cavab verilmişdir".

**Müraciət müəllifi yazır ki, ən müxtəlif qurumlara yolladığı ərizələr eyni məzmunlu olsa da, araşdırılmamış qalıb:** "Hörmətli Əşrəf Məmmədəliyev, məndən məcburi ərizə alıb işdən çıxmağıma, rəis Vüsal Eminovun korrupsiya əməllərini gizlədib onu müdafiə etdiyinizə, 2014-cü ilin noyabr ayında 1 həftə ərzində dəmir yolunun müxtəlif stansiyalarında işləyən 9 nəfəri məcburi işdən çıxarıb əmək müqavilələrinə xitam verdiyinizə, bu gün onların hamısının işsiz qaldığına görə sizin Azərbaycan Dəmir Yolları QSC-nin Yük Daşımaları Departamentinə rəhbərlik etməyə haqqınız yoxdur. Bütün bunlara görə siz qanun qarşısında cavab verməlisiniz".

❑ E.HÜSEYNOV

**P.S.** *Yazıda adı hallanan hər kəsi dinləməyə hazırıq.*

# Nazirlik "dərman bazarında qıtlıq" xəbəri ilə bağlı açıqlama verdi

## Pərviz Əzizbəyov: "Hər hansı bir ticari adla dərmanın aptekdə olmaması o demək deyil ki..."

**"Bu gün konkret olaraq Azərbaycanın dərman bazarında tərkiblə, təsiredici maddə ilə bağlı qıtlıq yoxdur". Bunu APA-ya Səhiyyə Nazirliyi Dərman Vasitələrinin Analitik Ekspertizası Mərkəzinin Dərmanların keyfiyyətinə nəzarət inspeksiyasının rəisi Pərviz Əzizbəyov deyib.**



O bildirib ki, apteklərdə bir təsiredici maddə üzrə müxtəlif ölkələrin, müxtəlif istehsalçıların dərmanları var: "Hər hansı bir ticari adla dərmanın aptekdə olmaması o demək deyil ki, dərman bazarında qıtlıq var. Dərman konkret adla olmaya bilər, ancaq təsiredici maddə üzrə nə qədər dərman preparatı var. Sadəcə, əczaçıya təsiredici maddəni deməklə bir neçə ölkənin, bir neçə istehsalçının istehsal etdiyi dərmanları almaq mümkündür".

**P.Əzizbəyov qeyd edib ki, artıq Səhiyyə Nazirliyi tərəfindən həkimlərə reseptlərdə dərman vasitəsinin adı ilə birgə təsiredici maddəni də yazmaq tövsiyə olunub:** "Bu ona görə tövsiyə edilib ki, problemlər ortaya çıxmasın".

Qeyd edək ki, sentyabrın 15-dən Tarif (qiymət) Şurası tərəfindən təsdiq edilmiş 25 təsiredici maddə üzrə (kombinə olunmuş dərman vasitələri istisna olmaqla) 1057 dərman vasitəsinin yeni qiymətləri qüvvəyə minib.

Xatırladaq ki, Tarif Şurasının oktyabrın 5-də keçirilən növbəti iclasında daha 1126 dərman vasitəsinin qiyməti təsdiqlənib. Bunlardan şuranın əvvəlki qərarları ilə qiymətləri təsdiq edilmiş təsiredici maddə qrupuna aid olan 47 dərman vasitəsinin qiyməti 2015-ci il 6 oktyabr tarixindən, yeni təsiredici maddələr üzrə 1079 dərman vasitəsinin qiyməti isə 2015-ci il 1 dekabr tarixindən qüvvəyə minəcək.

İndiyədək 2183 dərman vasitəsinin qiymətləri tənzimlənib ki, bununla da satışda olan dərman vasitələrinin mövcud qiymətləri ilə müqayisədə 53% dərman vasitəsinin qiyməti 2 dəfədən çox, 28% dərman vasitəsinin qiyməti 3 dəfədən çox aşağı salınıb, ümumilikdə isə satışda olan dərman vasitələrinin 98%-i üzrə qiymətlər endirilib.

Şuranın müvafiq qərarlarına əsasən, hər qrup təsiredici maddələr üzrə yeni qiymətlərin qüvvəyə minmə tarixindən etibarən həmin qrupa aid olan, lakin qiymətləri təsdiq edilməyən dərman vasitələrinin satışı yalnız onların qiyməti təsdiq edildikdən sonra həyata keçirilə bilər.

Bununla yanaşı, daha 135 təsiredici maddəyə aid dərman vasitələri üzrə sənədlərin (bəyannamələrin) qəbulu elan edilib və oktyabr ayının 20-si sənədlərin qəbulu üçün son tarix olaraq müəyyən edilib.

Qərarlar və dərman vasitələrinin siyahıları Tarif Şurasının rəsmi internet saytının (www.tariff.gov.az) "Şuranın Qərarları" və "Dərman vasitələri" bölmələrində yerləşdirilib.

YENİ MÜSAVAT

Son səhifə

N 221 (6249) 7 oktyabr 2015



## Aqressiv uşaqlarla necə davranmalı?

Adətən sakit olan uşaqlar müəyyən yaşlarında anidən əsəbi və ya aqressiv olan uşaqlar isə tam əksinə, sakit bir ruh halına keçə bilərlər. Bəs bu dövrdə normal qəbul edilən vəziyyət hansıdır? Bu sualın cavabını bilməyən valideynlər vəziyyətdən çıxış yolu tapmaqda çətinlik çəkirlər. 1-3 yaş qrupuna daxil olan uşaqlar müxtəlif davranış formaları nümayiş etdirə bilərlər. Vurmaq, dişləmək, bölüşməyi rədd etmək, əsəb sarsıntısı kimi davranışlar sağlam bir uşağın həyatındakı adi davranışlardan biri kimi qəbul edilməlidir. Buna rəğmən valideynlər bu davranışları neqativ hal kimi qiymətləndirirlər. Əslində bu cür davranışlar uşaqların dünyanı dərk etməsi üçün bir fürsətdir. Valideyn ilk olaraq övladında bəyənmədiyi davranışa reaksiya verməzdən öncə özünü sakitləşdirməyi bacarmalıdır. Mütəxəssislər valideynlərə uşağında bəyənmədiyi davranışı anlamağı məsləhət görürlər. Hər hansı bir davranışı anlamaq isə onu qəbul etmək mənasını daşımır. Valideynlər uşaqlarının bu cür davrandığını təxmin etməyə çalışmalıdırlar. Bu cür yanaşmaq həm valideyn, həm də uşaq üçün müsbət nəticə verəcək. Bu cür hallarla rastlaşdıqda valideynlər bəzi sərhədlər və qadağalar qoyaraq onun nəticələrini uşaqlara açıqlaya bilərlər. Belə qaydalar tətbiq edildikdə uşağın müəyyən davranışının bəyənilmədiyini və bu cür hərəkətlərlə hər hansı bir istəyinin yerinə yetirilməyəcəyi mesajını vermək olur.

# 10 yaşlı qız nəhəng timsahı öldürdü

Amerikalı Ella Houkun vur-tut 10 yaşı var. Amma buna rəğmən o, usta ovçudur. Milli.az ABC-yə istinadən bildirir ki, ABŞ-ın Texas ştatında yaşayan Ella ötən ay Quadelupe çayında 5,2 metr uzunluğunda timsahı ovlayıb. Özü də Ella timsahı arbaletlə vurub. Ellanın atası Toni və anası Sindi də ovu çox sevirlər. Onların dediklərinə görə, Ellanı 4 yaşından bəri özləri ilə ova aparıblar. Bunun sayəsində Ellanın macəraları ilə yanaşı, şikarlarının və ən başlıcası, müxtəlif "trophy" turnirlərində qazandığı mükafatların sayı sürəkli artıb. "Ovçuluq ailə hobbimizdir. Peşəkar ovçu olmaq niyyətində deyiləm. Vəkil, yaxud da yazıçı olmaq istəyirəm. Ovu isə sevirəm", - Ella deyib.



# Fironun məzarında gizli otaq

Misirin tarixi əsərlər naziri Mamduh Eldamaty və ingilis arxeoloq Nikolas Revesin birlikdə apardıqları araşdırmalar nəticəsində maraqlı fakt üzə çıxıb. Məlum olub ki, Misirin keçmiş fironu olan Tutankamonun qəbrinin həm şərq, həm də qərb divarının arxasında gizli otaqlar var. İngilis arxeoloqun sözlərinə görə, divarlarda fironun məzarının giriş qapısındakı cizgilərə bənzər cizgilər var imiş. Mütəxəssislər bu otaqların gizli məzar otaqları olduğunu düşünürlər. Bir müddət əvvəl də arxeoloq Nikolas Reves Hraliça Nefertirin illərdir tapılmayan məzarının Tutankamonun məzarının içində gizlədildiyini iddia etmişdi. Araşdırmalar Reevesin haqlı ola biləcəyini göstərir. Reves məzarın tavanının qərbə və şərqə doğru uzandığını demişdi. İngilis arxeoloq isə bu iddiaların doğruluğuna əmin olduğunu deyib. Lakin iddiaları sübut etmək üçün radar cihazından istifadəyə icazə verilməlidir. Reves Tutankamonun məzarının yan tərəfində Kraliça Nefertiti üçün xüsusi məzar hazırlatdığını düşünür. Bəzi mütəxəssislər isə kralın firon üçün məzar tikdirdiyini iddia edirlər.





## Pilot uçuş zamanı öldü

Amerikada pilot uçuş zamanı həyatını itirib. BBC-nin xəbərinə görə, Phoenix-Boston səfərini edən pilot özünü pis hiss edib və çox keçmədən həyatını itirib. Adı və yaşı açıqlanmayan kapitan pilotun ani ölümündən sonra yardımçı pilot 147 nəfər sərnişin daşıyan Amerika Hava Yollarına məxsus təyyarəni Syracuse şəhərində yerə endirib. Məlumatlara görə, uçuş zamanı təyyarədə olan bir tibb bacısı vəziyyəti ağırlaşan pilota yardım etməyə çalışsa da onu ölümdən xilas edə bilməyiblər. Kapitan pilotun ölümünə səbəb olan xəstəlik haqqında heç bir açıqlama verilməyib. Hava nəqliyyatı kontrolu zamanı təyyarədəki stüardessalardan birinin "pilot reaksiya vermir, nəfəs almır" deyə qışqırdığı məlum olub.




**QOÇ** - Gün ərzində üzərinizə düşən başlıca vəzifə mövqelərinizi qətiləşdirmək, tərəfdaşlarınızı sınamaq və yeni layihələri reallaşdırmaq üçün sövdələşmələr aparmaqdır. Qeyri-ənənəvilikdən qaçın.

**BUĞA** - Kosmik fon müvəffəqiyyət mərhələsinə qədəm qoymanızdan xəbər verir. Lakin boşluqlarınız da var. Bu baxımdan ilk növbədə ailə-sevgi məsələlərinə diqqət ayırmalı, qazancınızı boş məsrəflərə xərcləməməlisiniz.

**ƏKİZLƏR** - Qarşınızda sizə uğur gətirəcək bir təqvim durur. Bunun üçün öncə özünüzü mübahisəli situasiyalardan, risk və xəstəliklərdən qorumalı, həmçinin uzaq səfərləri də təxirə salmalısınız.

**XƏRÇƏNG** - Ulduzlar səhhətinizə fikir verməyi məsləhət görür. Uzaq səfərləri isə bacardığınız qədər təxirə salın. İndi sizə mübahisələrə girişmək, böyük və müəmmalı məsələlər barədə müzakirələr aparmaq yolverilməzdir.

**ŞİR** - Riskli pul sövdələşmələrinə girişməsəniz, günün ümumi ovqatı sizi məmnun edəcək. Tərəddüd etdiyiniz məqamlarda təcrübəli insanların məsləhətlərinə baş vurun. Günortadan sonra səfərə çıxmaq olar.

**QIZ** - Ulduzlara inansaq, indiki əziyyətləriniz vaxtında qarşınıza çıxan şansları yararlanmamağınızdan irəli gəlir. Amma bu "qara zolaq" nahardan sonra zəifləməyə başlayacaq, deməli, siz də güclənəcəksiniz.

**TƏRƏZİ** - Hansısa xoşagəlməzliyin baş verəcəyinə inanmayın. Üstəlik, bir az səmimi olun, dünyamızı, insanları daha çox sevin. Təxminən saat 16-dan sonra bir neçə önəmli hadisə ilə rastlaşacaqsınız. Yalan danışmayın.

**ƏQRƏB** - Yaxşısı budur, adi işlərin həlli ilə məşğul olasınız. Onsuz da dünyanı nə tam şəkildə dərk edən, nə də ona bütünlüklə sülh gətirən olub. İmkan verməyin ki, həmkarlarınızla aranıza girənlər olsun.

**OXATAN** - Ümumi atmosferin müsbət axarına riayət edib yalnız savab işlər görməyə çalışın. Yaşca özünüzdən böyük insanların məsləhətinə qulaq asın, kiçiklərə isə qayğı göstərin. Yeni təkliflərə razılıq verin.

**OĞLAQ** - Dünənə baxıb bu günə şükr etməyi bacarın, mövcud durumunuzdan şikayətlənməyin. Çünki sizdə bütün xeyirlər düşüncənizin təhərinizdən asılıdır. Yüksək çinli məmurlarla əlaqələri dərinləşdirin.

**SUTÖKƏN** - Özünüzü tənha hiss etməklə sizə nicat olmayacaq. Yaxşısı budur, üzərinizə düşən öhdəlikləri dəqiqləşdirib, onun həlli yollarını tapasınız. Sevginizdə olan boşluqları doldurun ki, qəlbiniz rahat olsun.

**BALIQLAR** - Ailə-sevgi münasibətlərində, eləcə də kollektivlə davranışda mülayimlik göstərsəniz, işləriniz qaydasına düşəcək. Perspektivli sövdələşmələr, o cümlədən şəxsi büdcədə artım yolunuzu gözləyir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Danimarkalılar suriyalılar üçün 4 milyon dollar topladılar



Danimarkanın Qızıl Xaç Cəmiyyəti 22 min könüllünün iştirak etdiyi kampaniya çərçivəsində bir gündə 25 milyon kron (təxminən 4 milyon dollar) toplayaraq rekord qırıb. Könüllülərin dönən qutulara topladığı məbləğ Danimarka Qızıl Xaçının tarixində yığılan ən yüksək miqdarda pul olub. Danimarka Qızıl Xaç Cəmiyyətinin müdiri Andres Ladekarl mediaya verdiyi açıqlamada yardım sevən xalqa təşəkkürünü bildirib. Cəmiyyət toplanan pulla suriyalı ailələri yardım üçün istifadə edəcək. Bununla bərabər Yəmən, Əfqanıstan və ehtiyac duyulan digər yerlərə yardım göndərəcəklər.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300